AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ

# “Azərbaycanın sosial-iqtisadi inkişafının tənzimlənməsində dövlətin rolu” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Məmmədova Fəridə Yusif**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**i.ü.f.d.,dos. Əhmədov Fariz Saleh**

**____________________ imza**

**"__" ____ 2019 -cu il**

**"Azərbaycanın sosial-iqtisadi inkişafının tənzimlənməsində dövlətin rolu"**

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060404 "İqtisadiyyat"**

**İxtisaslaşma: Təhsil, elm və sosial-mədəni sahənin iqtisadiyyatı**

**Qrup: 50**

**Magistrant:**

**Məmmədova Fəridə Yusif**

**__________________imza**

**Elmi rəhbər:**

**i.ü.f.d., b.m. Nəcəfova Kəmalə Akif**

**___________________imza**

**Proqram rəhbəri:**

**i.ü.f.d., b.m Hümbətova Suqra İnqilab**

**___________________imza**

**Kafedra müdiri:**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**

**_________________imza**

**BAKI – 2019**

**The role of the government in the socio-economical growth of Azerbaijan**

**Summary**

**Current research: When we talk about the government's role on the socio-economic growth in Azerbaijan, we firstly need to differentiate the terminologies economical incline and economical growth. Economical incline refers to the quantity change in the raw materials used for the production, meanwhile economical growth refers to the quality of the same subject. In the research, the model that has been helping the socio-economical state of Azerbaijan grow, has been pointed out, the model which has been in the use ever since the country had gained its independence.**

**In my personal opinion, to be able to bring back the wealth of our country, the main focus should be on the improvement of the non-oil sector. Even though oil has brought humongous growth, it has also counter-reacted on the decline of other sectors. From the research, the economical growth model in the Scandinavian countries, especially the model that is udes by Norway is perfectly usable for our country. In fact Norway has a great resource of natural energy, however, the have focused on the growth of non-oil sectors to be able to pass the wealth of oil sector to the upcoming generations. At the moment, our government is focusing on the growth of human capital, technological progress and the increase of the socio-economical state of the general population.**

**Target and goals of the research: The aim of this research is to analyze the steps taken by government to further-improve the socio-economical state of our country, to compare the targets and results, and then to identify the direction of our growth.**

**Used research methods: During the research, the methods of generalization, statistic analyzation, comparative analyzing were used.**

**The database for the research: The National Library of Azerbaijan, named after M.F.Akhundova, internet websites and other materials.**

**Limitations: As there were enough number of available and reliable sources, there was not any limit to the research conducted.**

**Results: In the first part of the research, the point of focus is the definition of socio-economical growth, and in the second part, the focus is on how the programs, that were put in action by the government, have resulted. Lastly the topic is adapting to the globalization process, and finally, some conclusions and reccomendations have been made based on the research of the growth model of economy of the other countries.**

**Science and practical use: The importance of the research is that the findings from the research could be used during the improvement of the socio-economical state of our country.**

**Keywords; socio-economic growth, social welfare, oil and non-oil sector**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

**ABŞ-** Amerika Birləşmiş Ştatları

**AİZ-** Azad İqtisadi Zona

**ETT-** Elmi Texniki Tərəqqi

**XİZ-** Xüsusi İqtisadi Zona

**İİİ-** İnsan İnkişaf İndeksi

**KOS-** Kiçik və orta sahibkarlıq subyektləri

**ÜDM-** Ümumi daxili məhsul

**SSRİ-** Sovet Sosialist Respublikaları İttifaqı

MÜNDƏRİCAT

**GİRİŞ** ........................................................................................................ **7**

**I Fəsil DÖVLƏTİN SOSİAL-İQTİSADİ İNKİŞAF MODELİNİN MAHİYYƏTİ VƏ NƏZƏRİ ƏSASLARI** ........................................ **10**

1.1 Sosial-iqtisadi inkişafın məzmunu və nəzəri metodoloji əsasları .................... 10

1.2. Dövlətin sosial-iqtisadi inkişaf strategiyası və onun reallaşma xüsusiyyətləri ........................................................................................................ 13

1.3.Sosial-iqtisadi inkişafın təmin olunmasında dövlətin milli iqtisadi inkişaf modelinin rolu ........................................................................................ 17

**II Fəsil DÖVLƏTİN SOSİAL-İQTİSADİ İNKİŞAF MODELİNİN MAHİYYƏTİ VƏ NƏZƏRİ ƏSASLARI** ........................................ **20**

2.1. Ölkənin sosial-iqtisadi inkişafın işlənib hazırlanması və reallaşdırılması üzrə dövlət siyasəti ........................................................................................ 20

2.2.Sosial-iqtisadi inkişafın təmin olunmasında istiqamətli dövlət proqramlarının rolu və tədqiqi........................................................................................ 24

2.3. Əhalinin sosial rifahının yüksəldilməsində dövlətin məşğulluq siyasətinin rolu və reallaşdırılmasına nəzarətin təşkili .................................................... 32

**III Fəsil AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.** ........................... **39**

3.1. Qloballaşma şəraitində Azərbaycan Respublikasında sosial-iqtisadi inkisafin təmin olunması və təkmilləşdirilməsi istiqamətləri. ......................................... 39

3.2. Dövlət mexanizmlərinin Azərbaycanda davamlı inkişafın təmin olunması və həlli yolları. ........................................................................................ 51

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ........................................................................ **65**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI** ........................................... **72**

Cədvəllərin siyahısı ........................................................................ 75

Şəkillərin siyahısı ........................................................................ 76

Qrafiklərin siyahısı ........................................................................ 76

Diaqramların siyahısı ........................................................................ 76

# GİRİŞ

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikasının XX əsrin sonlarında öz müstəqilliyini qazandığı andan etibarən müasir dövrümüzə qədər ölkəmizin sosial-iqtisadi strategiyasında bir sıra dəyişikliklər baş vermişdir. Dövlət müstəqilliyinin bərpasından sonra ötən müddətdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasəti nəticəsində,bir sıra maneələrə baxmayaraq, əhalinin sosial-iqtisadi inkişafı və beynəlxalq təsərrüfat sisteminə adaptasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdur. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan iqtisadi islahatların və inkişafın nəticəsində yeni bir model - Azərbaycan modeli yaranmışdır. Həyata keçirilən fəaliyyətlər nəticəsində 90-cı illərin birinci yarısında iqtisadiyyatımıza xas olan geriləmə dayanmış və növbəti inkişaf mərhələsinin başlanğıcı qoyulmuşdur.

Məlum olduğu kimi, ölkənin sosial-iqtisadi inkişafı onun mənəvi-mədəni inkişafına səbəb olan əsas amillərdən biridir. Buna muvafiq olaraq uğurla icra edilən sosial-iqtisadi inkişafa dair dövlət proqramları ölkəmizin həyatında yeni mərhələyə başlanğıc olmaqla yanaşı, ölkə əhalisinin sosial rifahının artmasında da əvəzsiz yerə malikdir. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də digər infrastrukturların tikilməsi və yenilənməsi vətəndaşlarımızın sosial rifahının yüksəlişinə xidmət göstərir.

Göründüyü kimi, ölkəmizdə sosial-iqtisadi həyatın daha da yaxşılaşmasında, bölgələrdəki rifahın arttırılması ilə bütövlükdə yeni inkişaf mərhələsinə qədəm qoyulmasında aparılan dövlət siyasətinin mühüm rolu var. Məhz bu nöqtədə araşdırılan mövzumuzun aktuallığı özünü daha qabarıq şəkildə biruzə verir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Ölkəmizdə sosial-iqtisadi inkişaf mərhələləri araşdırılmış və qlobal şəraitdə bu sahə üzrə dövlət tənzimləmələrinin inkişaf etdirilməsinə dair təkliflər verilmişdir.

**Tədqiqatın məqsədi və qarşıya qoyulan vəzifələr.** Tədqiqat işinin məqsədi müasir şəraitdə ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunması istiqamətində görülən tədbirlərin və dövlət proqramlarının təhlil edilməsi, məqsəd və

nəticələrinin qarşılaşdırılması və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi təşkil edir.

Buna bağlı olaraq tədqiqatda bu vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur.

- Sosial-iqtisadi inkişafın dövlət tənzimləməsinin əsas istiqamətlərinin müəyyən edilməsi
- Azərbaycanda sosial-iqtisadi inkişafın hüquqi təminatı məsələlərini tədqiq etmək
- Azərbaycan Respublikasında sosial-iqtisadi inkişaf istiqamətli dövlət proqramlarının rolunu müəyyənləşdirmək və tədqiq etmək

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti müasir şəraitdə ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunması və bu istiqamətdəki fəaliyyətlərin təkmilləşdirilməsi üzərində qurulmuş, predmeti isə sosial-iqtisadi inkişaf məqsədli dövlət prqramlarının mahiyyətinin tədqiqi təşkil edir.

**Tədqiqatın metodları:** Dissertasiya işinin hazırlanması zamanı statistik təhlil, müqayisə üsulu ilə analiz və digər bir sıra metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** M.F.Axundov adina Azərbaycan milli kitabxanasına məxsus materiallardan, internet saytlardan və digər materiallardan istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Ölkəmizdə sosial-iqtisadi inkişafla əlaqədar dövlət səviyyəsində qəbul olunan proqramlar, sərəncamlar və digər fəaliyyət istiqamətləri bazası kifayət qədər əlçatan olduğundan tədqiqat zamanı hər hansı bir məhdudiyytlə qarşılaşılmamışdır.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti:** Araşdırmanın praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat işində əks olunan məsələlər ölkəmizdə sosial iqtisadi inkişafın həyata keçirilməsi ilə bağlı tədbirlərdə istifadə edilə bilər.

**Dissertasiya işinin strukturu və həcmi**. Dissertasiya işi giriş, 3 fəsil, nəticə və təklif, ədəbiyyat siyahısı, istinad edilən mənbələrdən ibarətdir. Dissertasiyanın ümumi həcmi 79 səhifədən ibarətdir. Dissertasiya işinin "Dövlətin sosial-iqtisadi inkişaf modelinin mahiyyəti və nəzəri əsasları " adlanan birinci hissəsində sosial-

iqtisadi inkişafın mahiyyəti izah edilmiş, dövlətin bu sahədə həyata keçirəbiləcəyi model üzərində araşdırma aparılmışdır.

“Azərbaycanda sosial-iqtisadi inkişaf strategiyalarının təhlili və həlli yolları” adlanan ikinci fəsildə istəsən ölkəmizin tarixən keçirmiş olduğu iqtisadi inkişaf mərhələləri göstərilmişdir.

Üçüncü və “Azərbaycan respublikasında sosial-iqtisadi inkişafın təkmilləşdirilməsi istiqamətləri” adlanan fəsildə isə bu istiqamətdə dövlət səviyyəsində həyata keçirilmiş lakin daha da təkmilləşdirilməyə ehtiyacı olan fəaliyyət sahələrindən bəhs edilmişdir.

Dissertasiya işinin “Nəticə və təkliflər” bölməsində isə aparılmış araşdırma əsasında əldə edilmiş nəticələr və qeyd olunan təkliflər öz əksini tapır.

Sonda isə dissertasiya işində istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələr verilmişdir.

# I Fəsil DÖVLƏTİN SOSİAL-İQTİSADİ İNKİŞAF MODELİNİN MAHİYYƏTİ VƏ NƏZƏRİ ƏSASLARI

## 1.1. Sosial-iqtisadi inkişafın məzmunu və nəzəri metodoloji əsasları

Bildiyimiz kimi sosial-iqtisadi prosseslər müxtəlif formalarda seyr etməkdədir. Onlar öz məzmununa, davametmə müddətinə və nəticələrinə görə bir birindən fərqlənir. Lakin bununla yanaşı sosial-iqtisadi prosseslər həm də qarşılıqlı əlaqəli şəkildə təzahür edir.

Sosial-iqtisadi inkişafın məzmununa tarixi baxımdan nəzər yetirdiyimiz zaman ilkin təsərrüfatçılıq dövrü daha çox şəxsi aspektdə təzahür etsə belə onun inkişaf proseslərinin sosial görünümünü inkar etmək olmaz. İlkin sosial anlayışlar “Asiya istehsal üsulu”nun sınandığı antik cəmiyyət sferasında məhdud formada təzahür etmişdir. Qədim dünyanın bütün dövlətlərində və yarımdövlətlərində ilkin konstitusiyan şərtlər, hüquqi aktlar cəmiyyətin iqtisadi və sosial həyatının vəhdətinə doğru istiqamətləndirilmişdir. (Hacızadə.E.M, 2006, s. 11)

Qədim dövrlərdən bəri iqtisadiyyatın sosial mahiyyəti haqqında fikirlər olsa da müasir inkişaf mərhələsində o daha çox sosiallıqla əhatə olunmuşdur. Hal-hazırda inkişaf etmiş ölkələr yeni iqtisadi inkişaf strategiyasını artıq yalnız dövlətin güclənməsi, iqtisadi təhlükəsizlik, dayanaqlı büdcə ilə deyil, cəmiyyətin ehtiyaclarını da nəzərə alaraq geniş ictimai təminatlar xətti üzərində də qururlar. Bir sözlə qlobal bazar şəraitində səhiyyə, elm, incəsənət, təhsil, mədəniyyət bütünlükdə bütün sivilizasiya dəyərləri ilə əlaqələndirilmiş iqtisadi strategiyalar daha aktualdır.

Sosial fəaliyyət sosial mühitin müəyyən keyfiyyət çərçivəsində mənəvi, maddi və sosial müvəffəqiyyətlər təmin edən həyat əhəmiyyətli parçasıdır. İqtisadi inkişaf anlayışını ictimai cəhətdən də təhlil etdiyimiz zaman onu, mürəkkəb xarici və daxili amillərin qarşılıqlı təsiri nəticəsində müəyyən mexanizmlər vasitəsi ilə ictimai istehsalatda meydana gələn dəyişikliklər də adlandırmaq olar.

Sosial-iqtisadi inkişaflar daim keyfiyyətli dəyişikliklər, bir vəziyyətdən daha keyfiyyətli struktura keçid nətisəsində baş verir. Qeqel nəzəriyyəsi görə ictimai-

iqtisadi inkişaf - bu inkarın inkarıdır, yəni başlanğıc inkişaf etmiş nəticə deyil, nəticə inkişaf etmiş başlanğıcdır.

Sosial inkişaf nisbi müstəqilliyə sahib olsa da, müəyyən qədər iqtisadi inkişaf potensialından asılı olan mövcud resurslara görə də müəyyən edilir. Buna görə də yalnız iqtisadi inkişafı təmin etməklə cəmiyyətin həyatında bir sıra irəliləyişləri həyata keçirmək və əhalinin sosial rifah səviyyəsini artırmaq olar. Bu da nəticə olaraq həyata keçirilən sosial- iqtisadi siyasətin müvəffəqiyyətini müəyyən edir.

İqtisadiyyatın müasir dövrdə sosiallaşmadan kənara çıxa bilməməsi həqiqəti sosial-iqtisadi sistemin formalaşmasının nəzəri və metodoliji əsaslarını da əsas tədqiqat obyektinə çevirir. İqtisadi və sosial qanunlar sistemi məqsəd, vəzifə səlahiyyətlər, hüquqlar və mexanizmlərin məhsulu, onların vahid sistemi kimi formalaşması baxımından təşkil olunur.

Dövlət siyasətinin əsas inkişaf strategiyasının irəliləmə xətti Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə keçid şəraitinin səmərəli təşkili, onun iqtisadi və sosial effekti üzərində qurulmuşdur. Sosial-iqtisadi islahatların rolu isə iqtisadi artım, ölkə iqtisadiyyatının təhlükəsizliyinin təşkili və əhalinin həyat səviyyəsi istiqamətlərində əldə edilən nəticələr baxımından qiymətləndirilir.

İlk növbədə sosial-iqtisadi idarəetmənin sistemli qanunları mövcud olmalı, sosial sferanın münasibətlərinin iqtisadi, hüquqi və təşkilati əsasını təmin etməlidir. Bu qanunlar sosial sistemin ayrı-ayrı sahələrini, yaxud bütövlükdə bu sahənin bütün inkişaf istiqamətlərini müəyyən edərək, hüquqi və iqtisadi qanunlara uyğun olaraq öz fəaliyyətlərini həyata keçirdir. Sosial və iqtisadi qanunlar sistemi qarşılıqlı formada fəaliyyətini davam etdirməlidir.

Sosial-iqtisadi qanunlar sisteminə aşağıdakı qanunlar toplusu daxildir;

- Sağlamlıq haqqında qanun;
- Tibbi sığorta haqqında qanun;
- Mədəniyyət haqqında qanun;
- Tarixi abidələrin bərpası və qorunması haqqında qanun;
- Elm və incəsənət sahələri haqqında qanun.
- Əhalinin sosial-iqtisadi təminatını müəyyən edən iqtisadi qanunlar.

Sosial inkişafın qanunvericilik bazasını mövcud iqtisadi- sosial vəziyyəti və onun yaxşılaşdırılmasına yönəldilən tədbirlər çoxluğu təşkil etməlidir. Bu baxımdan iqtisadi qanunlar sistemi reallıq, komplekslilik, əməli olmalıdır. (Əlirzayev.Ə.Q, 2005, s. 27)

Öz iqtisadiyyatlarında dövlətin tənzimləmələrinə xüsusi əhəmiyyət verən ölkələr bu fəaliyyət istiqamətlərinə xüsusi diqqət ayırır; iqtisadiyyatın strukturunun səmərəli qurulması; inhisarçılığa qarşı mübarizəni gücləndirmək; əlverişli investisiya mühiti üçün şərait yaratmaq; elmi-texniki inkişafın reallaşdırılması təmin etmək, pul siyasətində tənzimləmələr həyata keçirmək, əhalinin sosial-iqtisadi rifahının arttırılması tədbirlərini genişləndirmək; xarici iqtisadi əlaqələrin möhkəmləndirilməsi və ətraf mühitin mühafizəsini təmin edərək bu proseslərin hüquqi bazasını təkmilləşdirmək.

Ölkənin sosial iqtisadi inkişafı strategiyasının hazırlanmasında ölkə ərazisinin regionlara bölgüsü və bu bölgünün iqtisadi, ekoloji, milli və sosial göstəricilərə görə qruplaşdırılması xüsusi önəm daşıyır.

Dünya təsərrüfat sistemində isə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi zamanı aşağıdakı konsepsiyalar daha çox önə çıxır:

- İstehsalın inkişaf konsepsiyası (təklif konsepsiyası). İstehsal qüvvələrinin inkişafı, iqtisadi strukturunun təkmilləşdirilməsi və iqtisadi artımın təminatı, işsizliyin, inkişafda qeyri-bərabərliyin azaldılması əsas olaraq ələ alınır.
- Təkrar istehsal konsepsiyasında istehsalın tarazlı artımına nail olmaq üçün böhran və inflyasiyaya qarşı effektiv planların hazırlanması və xarici iqtisadi tarazlığın tənzimlənməsi siyasəti həyata keçirilir.
- Tələb konsepsiyasında isə istehsalın tələb baxımından stimullaşdırılması, tam məşğulluğa nail olmaq üçün toplam tələbin toplam təklifi üstələməsi əsas kimi götürülür.
- İdxalı əvəzləmə konsepsiyası. Çox vaxt daxili bazarı və istehsalı qoruma ilə nəticələnir.

Yuxarıda qeyd olunan inkişaf konsepsiyalarını sonrakı bölmələrdə daha ərtaflı olaraq təhlil ediləcəkdir. Lakin xülasə olaraq bu fikri qeyd etmək də mümkündür

ki, sosial bazar təsərrüfatının nəzəriyyəsi dəqiq qanunvericiliklə, əmək və sosial təminatlarla, ağıllı xarici iqtisadi siyasət aparmaqla şüurlu və konkret mexanizmləri özündə birləşdirdiyi halda daha effektiv fəaliyyət göstərməkdədir.

## 1.2. Dövlətin sosial-iqtisadi inkişaf strategiyası və onun reallaşma xüsusiyyətləri

Sosial inkişaf iqtisadi inkişafın tərkib elementi olub, özünəməxsus qanunauyğunluqları da olan bir prosessdir. Sosial inkişaf həm də insanın həyat fəaliyyəti, davranışı və onun məhsuldarlığı ilə bağlı olub iqtisadi inkişafın həm nəticəsi həm də müəyyənləşdirici amilidir. Sosial inkişaf ilkin olaraq həyat səviyyəsi, əmək haqqı, sosial müdafıə və sığorta problemlərinin həlli ilə bağlı olmalıdır.

Dövlət iqtisadiyyatın sosiallaşmasına səbəb doğuran bəşəri və regional xüsusiyyətləri bir araya gətirərək qiymətləndirməli, bu reallıqdan yola çıxaraq sosial-iqtisadi inkişafın təminatında insan kapitalının inkişafı üçün məşğulluq probleminin həlli, yoxsulluğun azaldılması və ümumilikdə effektiv sosial infrastrukturun yaradılması vacib şərt olaraq qəbul edilməlidir.

Sosial inkişafın planlaşması və tənzimlənməsi dövlətin hər zaman əsas fəaliyyət dairəsinə daxil olmalıdır. Yəni, dövlət öz imkanları daxilində sosial inkişafın dinamikasına və sturukturuna təsir edərək bu dəyişiklikləri özünə uyğun istiqamətdə dəyişdirməlidir. Sosial-iqtisadi inkişafın dövlət tərəfindən tənzimlənməsi həm də əhali tələbatını təmin edən mexanizmlərin də idarə olunmasını tələb edir. Bu baxımdan dövlət idarəetmə problemini önə çəkməli, iqtisadiyyatın və sosial sahənin idarə olunmasında sosial siyasi fəaliyyətləri də sistemləşdirməlidir. Dövlətin artan sosial məsuliyyət çərçivəsində isə gəlirlərin optimal bölgüsünün, sosial təminatlılığın artırılmasının, servis işinin inkişafının da mühim amil kimi qəbul etməsi zəruridir. L.Erhardın təmayülündə bulunduğu sosial-iqtisadi inkişafın təminatı ilə bağlı dövlət fəaliyyətlərinin fərqləndirici cəhətləri aşağıdakılardır:

I. Dövlətin sosial-iqtisadi həyatda xüsusi rolu. Təsərrüfat sisteminin əsasını azad bazar iqtisadiyyatı və rəqabətli bazar təşkil etsə belə o, özbaşına təşəkkül tapmır. Onu dövlət yaradır. Dövlət davranış qaydalarını müəyyən edərək bu sistemdəki aktiv hərəkətliliyi təmin edir.

II. Dövlətin bir digər fərqləndirici funksiyası isə spesifik sosial siyasətin seçimi və reallaşdırmasından ibarətdir. Hansı ki, bu siyasət iqtisadi, sosial və siyasi qayda qanuna əsaslanmışdır.

III. Sistemin qurulmasının və dayanıqlılığının başlıca amili kimi, rəqabətin hərtərəfli inkişafı da təmin olunmalıdır. Bunun üçün isə dövlət kiçik və orta biznesə kömək məqsədi ilə inhisarçılıqla zəruri mübarizəni aparılmalıdır. Hər bir insana bacarığını və imkanlarını göstərməkdə şərait yaratmalıdır. (SAM-ın şərhləri, 2011: s.46)

Dövlətlə iqtisadiyyatın ikitərəfli əlaqəsi və dövlətin ona təsiri 3 istiqamətli həyata keçirilir. Bunlar effektivliyin artırılması, iqtisadi sabitliyin qorunması və bərabərliyin təmin olunmasıdır. Yəni dövlət iqtisadiyyatın əks təsirinə müvafiq olaraq müdaxilə edərək iqtisadi inkişafa təkan verir, onun iqtisadiyyatı özünə tabe etdirmək cəhdi isə iqtisadi durğunluğa aparır. Ancaq dövlət iqtisadi inkişafa bu və ya digər sahədə təsir göstərməklə onu deformasiyaya uğradır ki, bunun özü də inkişafda yeni və yaxud müsbət meyillərin yaranmasına gətirib çıxarır. (Əhmədov.M.A.,Hüseyn.A.C., 2011, s. 7)

Respublikamız üçün milli iqtisadiyyatın formalaşması əvvəlki dövrlərə gedib çıxır. Belə ki, XIV-XV əsrlərdə feodal quruluşları yerinə milli dövlətlərin və iqtisadiyyatın meydana gəlməsi ilə başlayan formalaşma prossesi bu dövrün başlanğıcı olmuşdur. Bütün dünya ölkələrində milli iqtisadiyyatın formalaşması prosesində meydana gələn bu inkişaf Azərbaycan üçün də səciyyəvi olmuş və kompleks inkişaf dinamikası sonrakı dövrlərdə də davam etmişdir. Belə ki, müstəmləkə olduğumuz 1956-1985-ci illəri əhatə edən otuzillik bir dövrdə belə ölkəmizdə milli gəlir sürətlə artım göstərmiş və hər il orta hesabla 16,2 % artım əldə edilmişdir. Bu dövrdə müxtəlif tipli çətinliklər olsa da xalqımız bu çətinlikləri aradan qaldırmış, milli iqtisadiyyatımızı inkişaf etdirərək möhkəm iqtisadi təməl

yarada bilmişdir. Bu güclü iqtisadiyyat isə öz təsirini ölkəmizdə təhsilin, elm və səhiyyənin yüksəlməsində də göstərmişdir. Bu iqtisadi artım dinamikasının axarına qoşulduğumuz dövrün sonuna yaxın SSRİ-nin süqutu ilə ölkəmizin digər müttəfiq respublikalarla illər boyu formalaşmış təsərrüfat əlaqələrinin qırılması və səriştəsiz idarəetmə səbəbindən Azərbaycan bütün sahələrdə geriləmə nümayiş etdirməyə başlamışdır. Təkcə belə bir fakta diqqət yetirmək olar ki, 1991-ci ildə dövlət büdcəsində əmələ gəlmiş kəsir ümumi daxili məhsulun 30 %-nə bərabər idi.

Çox keçmədən müstəqilliyə qovuşmağımızın ardınca milli iqtisadiyyatın inkişaf səviyyəsinin elmi baxımdan müzakirə olunması ötən dövr ərzində həyata keçirilən sosial-iqtisadi islahatların müsbət və mənfi cəhətlərini təyin etməyə imkan yaratmışdır. Bu dövrə nəzər saldığımız zaman keçid iqtisadiyyatlı ölkələrdə olduğu kimi, respublikamızda da iqtisadi islahatlara qiymətlərin və xarici iqtisadi fəaliyyətin tənzimlənməsindən başlanıldığı nəzərimizə çarpır. Lakin iqtisadiyyatınn tamamilə inhisarçı olduğu bir şəraitdə liberallaşmanın yalnız qiymətlərin artması kimi təzahür etməsi, onsuz da ağır vəziyyətdə olan iqtisadiyyatı tamamilə zəiflətməkdə idi. L.Balşeroviç tərəfindən irəli sürülən və "şok terapiyası" adlanan modelin bir sıra mənfi xüsusiyyətləri olmasına baxmayaraq üç əsas amili; qiymət sistemində liberallaşma, xarici iqtisadi əlaqələrdə, o cümlədən, pulkredit siyasətində yenilənmə və dövlətin himayəsində olan mülkiyyətin özəlləşdirilməsi şərqi Avropa və Baltikyanı ölkələrin hazırkı inkişafını təmin etməsinə baxmayaraq, bu dövlətlərin təcrübəsi bizim üçün o dövrdə nümunə ola bilmədi. Ümumiyyətlə müstəqillik illərində Azərbaycanın sosial-iqtisadi inkişafı dövrünü, qarşıya qoyulan məqsəd və vəzifələr baxımından aşağıdakı mərhələlərə ayırmaq olar:

1) İqtisadi tənəzzül və geriləmə mərhələsi (1991-1993-cü illər).

2) Siyasi sabitliyə nail olunması və iqtisadi durğunluq mərhələsi (1994-1995-ci illər).

3) İslahatların ilkin nəticələri və dayanıqlı iqtisadi inkişafa keçid mərhələsi (1996-2000-ci illər).

4) İqtisadi sabitliyin təmin olunması və xarici iqtisadi fəaliyyətdə dinamiklik mərhələsi (2001-2003-cü illər).
5) Qeyri-neft sektorunun inkişafı və iqtisadi artımın davamlılığı mərhələsi (2004-2008-cu illər).
6) Keçid dövrünün başa çatması və müstəqil milli iqtisadiyyatda sosial-iqtisadi inkişaf mərhələsi (2009-cu ildən bu günümüzə qədər). (Qurbanov.T.M, 2013, s. 24)

Dissertasiya işində araşdırmalar zəminində belə bir qənaətə gəlmək olar ki, sosial-iqtisadi inkişafın dinamik və perspektivli şəkildə təmin olunmasında dövlət tənzimlənməsinin rolu əvəzsizdir. Dövlətin rolu və funksiyaları təhlil etdiyimiz zaman isə dövlət tənzimlənməsinin müxtəlif istiqamətlər üzrə reallaşdırıla biləcəyini də qeyd etmək lazımdır. Bu istiqamətlər arasında regional inkişaf fəaliyyətlərini də vurğulamaq zəruridir. Ümumiyyətlə ölkə səviyyəsində qeydə alınan məsələlərə, region səviyyəsində də nəzər yetirilib həll olunmalıdır. Nəzərə alsaq ki, hər bir region dövlət və yerli özünidarəetmə orqanları arasında, eləcə də bu qurumların öz daxilində müxtəlif qarşılıqlı münasibətlərin cəmləşdiyi bir ərazidir, o zaman regional siyasətin hazırlanması və regionların inkişafının təmin edilməsinin mürəkkəbliyi də açıq aydin görünür. Bu səbəbdən də regional sosial-iqtisadi inkişafın təmin edilməsi ölkənin mövcud olan sosial-iqtisadi inkişaf strategiyasının digər sahələri arasında nisbətən daha qəlizdir. Çünki regionların inkişaf strategiyasının həyata keçirilməsi zamanı mühim sayda ölkə miqyaslı amillərlə yanaşı hər regionun öz daxili şəraitindən və iqtisadi potensialından irəli gələn amillər təsir edir. Bu baxımdan, dövlət səviyyəsində həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin uğuru regionlara yönəldilmiş inkişaf siyasətinin uğurundan, eləcə də regional inkişafın müvəffəqiyyəti isə həyata keçirilən ərazinin strukturuna istiqamətlənmiş siyasətdən asılıdır.

Regionların inkişafı dedikdə orada yaşayan əhalinin həyat səviyyəsinin yüksəldilməsindən və regionların sahib olduğu təbii ehtiyatlardan səmərəli şəkildə istifadə edilməsi kimi tədbirlər toplusundan ibarətdir. İqtisadi inkişaf baxımından regionlarimiz aşağıdakı şəkildə qruplaşdıra bilərik:

- İnkişaf etmiş regionlar

- Zəif inkişaf göstərən regionlar
- Depressiv zonalar
- Sərhədboyu zonalar

Tədqiqatımızda araşdırdığımız bir digər nöqtə isə dövlətin sosial-iqtisadi inkişaf strategiyasında mühim yerə malik olan bu region qruplaşmalarına istiqamətlənmiş fəaliyyətlər arasındakı fərqi müəyyən etməkdir. Qəbul olunmuş effektiv tədbirlər isə bu başlıqlar altında sıralana bilər.

1. İqtisadi baxımdan inkişaf etmiş regionlar üzərində kredit güzəştlərinin nisbətən azaldılması, bununla bərabər əhalinin mənzil və ərzaq təminatı ilə bağlı sahələrin inkişaf etdirilməsi və minumum əməkhaqqının əhalinin minimum istehlak səbətini nəzərə alaraq müəyyənləşdirilməsi fikrimcə daha effektiv nəticə yaradacaqdır.
2. Zəif inkişaf etmiş regionlar üzərində isə kredit və vergi güzəştlərinin yuxarı tutulması və yeni iş yerlərinin açılması üçün sahibkarlarla birlikdə xarici və yerli investorlara güzəştlərin olunması kimi tədbirlər daha müsbət nəticələr doğuracaqdır.
3. Depressiv rayonlarda isə ilk növbədə dövlət siğortasının güclü təmin olunması, azad iqtisadi zonaların yaradılması, vergidən azadetmələr və s. fəaliyyətlərin özünü doğruldacağı güman edilir.
4. Son olaraq sərhədboyu rayonlarda isə əhalinin sosial müdafiəsinə xüsusi diqqətin ayrilmalı, cəmiyyətin maarifləndirilməsi istiqamətində fəaliyyətlərin təşkil olunması bu regionlarda sosial-iqtisadi inkişafa və bilavasitə ölkəmizin də sosial-iqtisadi inkişafına təminat verəcəkdir.

Tədqiqatın növbəti bölmələrində ölkə idarəetməsinin bu regionlar üzərində apardığı sosial-iqtisadi fəaliyyət istiqamətlərindən bəhs olunmaqdadır.

### 1.3. Sosial-iqtisadi inkişafın təmin olunmasında dövlətin milli iqtisadi inkişaf modelinin rolu

1991-ci ildə ölkəmizin dövlət müstəqilliyini bərpa etdikdən sonraki dövrdə sosial-iqtisadi inkişaf yolunu üç mərhələyə ayıra bilərik. Birinci mərhələ, belə

deмək mümkünsə, müstəqilliyin ilk illərində yalnız hakimiyyət uğrunda mübarizənin mövcud olduğu iqtisadiyyatın isə fərziyyə olaraq inkişaf etdirildiyi mərhələ idi. Bu dövrdə pulun qiymət vahidini istehsal deyil, qara bazardakı valyuta məzənnəsi təyin edirdi. Lakin 1993-cü ildə ölkədə baş verən siyasi böhran anında Heydər Əliyevin hakimiyyətə qayitması ilə sosial-iqtisadi inkişafın ilk addımları yaranmağa başladı. "Əsrin müqaviləsi"nin imzalanmasınadək olan dövrü növbəti mərhələ hesab etmək olar və xüsusilə qeyd etmək lazımdır ki, o, digər sahələrdə olduğu kimi bu sahədə də əsaslı dəyişikliklərin aparılması üçün şərait yaratmışdı. "Əsrin müqaviləsi" adı ilə hər kəsə məlum olan bu müqavilənin həyata keçirilməsi müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi sistemininin özülünü təşkil edən neft siyasətinin də həyata keçirilməsinin başlanğıc nöqtəsidir.

İnkişafımızın növbəti mərhələsində isə "Azərbaycan modeli"nin həyata keçirilməsi üçün bir sıra addımlar atılmışdır. Ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafına dair bir sıra proqramlar imzalanmış və ölkəmizin dayaniqli sosial-iqtisadi inkişaf yolunda zəmin addımlarını yaratmışdır.

Bu illər ərzində həyata keçirilmiş bir sıra tədbirlər nəticəsində ilkin məlumatlara nəzər yetirdiyimiz zaman ölkədə 912,8 mindən çox yeni və 654,8 min daimi iş yeri açılması faktı ilə qarşılaşmış oluruq. Yeni yaradılan 33 mindən çox müəssisələrin 40%-ə qədəri regionlarda fəaliyyət göstərmiş, bu müəssisələrin 88%-dən çoxu isə xüsusi mülkiyyətli müəssisələrdən ibarət idi. Azərbaycanın iqtisadi inkişaf modelinin səmərəli olmasının ən böyük sübutu son illərdə ölkəmizdə sosial-iqtisadi inkişaf sahəsində əldə olunmuş nailiyyətlərdir. 90-cı illərin əvvəllərində zərərlə işləyən subyektlərinin səmərəli işləməyə başlaması 1991 - 2010 cu illər ərzində iqtisadiyyatımızdakı keyfiyyət və kəmiyyət dəyişikliklərinin bariz sübutudur.

Daha sonralar Azərbaycannın regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş birinci və ikinci dövlət proqramları da milli iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi sahəsində əhəmiyyətli dərəcədə yol almağımıza səbəb olmuşdur. Son illərdə isə dövlət tərəfindən sahibkarlara kreditlərin verilməsi şərtlərinin sadələşdirilməsi və faiz dərəcələrinin aşağı salınması, güzəştli

kreditlərin artırılması özəl sektorun inkişafına yeni stimul vermiş, sahibkarlığın inkişafına çox böyük imkanlar yaratmışdır.

Davamli sosial-iqtisadi inkişafa məqsədlənmiş ölkə idarəçiliyi 4 strateji hədəfi özü üçün qəbul etmişdir. Dövlətin qarşısında birinci strateji addım olaraq fiskal dayanıqlılığın təmin edilməsi və monetar fəaliyyətlərin üzən məzənnə rejimi üzərində qurulması durmuş idi. Bunun nəticəsi olaraq isə makroiqtisadi sabitliyin təmin olunması gözlənilməkdə idi. Özəlləşdirmənin həyata keçirilməsi ilə tərənnüm olunan ikinci mərhələdə əsas məqsəd iqtisadi aktivliyi təmin etməkdir. Üçüncü hədəf insan kapitalının inkişafı ilə bağlıdır ki, bununla əmək bazarının inkişafı sosial-iqtisadi perspektivin başlıca amillərindən biridir. Nəhayət, sonuncu hədəf isə biznes mühitinin daha da inkişaf etdirilməsinə istiqamətlənmişdir. Bu və digər strateji hədəflər istiqamətində həyata keçən yol xəritələrinin sosial-iqtisadi inkişafda səbəb olacağı nəaliyyətləri isə bu başlıqlar altında qruplaşdırmaq olar. İlk olaraq makroiqtisadi stabilliyin qorunub saxlanılmasına səbəb olacaq və iqtisadi artimin davamlılığını təmin edəcəkdir. Dövlətimiz tərəfindən həyata keçirilən milli iqtisadi inkişaf modelinin bir fəaliyyət istiqaməti isə ölkədə yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azalması və sosial infrasturuktur sahələrinin inkişafına həvəsləndirilməsidir. Ölkəmizin dünya təsərrüfat sisteminə inteqrasiyasi xarici faktorların da birbaşa cəmiyyətin sosial rifahına xidmət etməsinə gətirib çıxarmışdır.

Təqdiqat işində dövlətin həyata keçirdiyi milli iqtisadi inkişaf modelinin rolu üçüncü fəsildə daha ətraflı izah etdiyimiz insan inkişaf hesabatına görə də göstərilmişdir. Belə ki, Azərbaycanın BMT İnkişaf Proqramının əhalinin rifah səviyyəsini əks etdirən İnsan İnkişafı Hesabatında 34 pillə irəliləyərək 169 ölkə arasında 2005-ci ildə tutduğu 101-ci yerdən 5 il sonra 67-ci yerə yüksəlmişdir. (http://www.elibrary.az)

Dövlətin apardığı milli iqtisadi inkişaf modelinin bir digər uğurlu nəticəsi isə Azərbaycan orta insan inkişafı adlanan qrup ölkələrini tərk edərək yüksək insan inkişafı kateqoriyasına daxil edilməsidir.

# II Fəsil AZƏRBAYCANDA SOSİAL-İQTİSADİ İNKİŞAF STRATEGİYALARININ TƏHLİLİ VƏ HƏLLİ YOLLARI

## 2.1. Ölkənin sosial-iqtisadi inkişafın işlənib hazırlanması və reallaşdırılması üzrə dövlət siyasəti

Bildiyimiz kimi sosial-iqtisadi inkişaf və dövlət siyasəti bir-birinə bağlı və qarşılıqlı təsir gücünə malikdirlər. Bu zəmində mövcüd təcrübəyə əsasən sosial-iqtisadi inkişafın millətin mənəviyyatının inkişafı nəticəsinə yarandığını qeyd etmək mümkündür. Mənəvi dəyərlər sosial-iqtisadi inkişafın təsiri ilə daha da yüksələrək onu həm müşayət edir, həm də əsas səbəblərindən biri kimi çıxış edir. Sosial-iqtisadi inkişaf və dövlət siyasətini təhlil etmədən öncə iqtisadi artım və iqtisadi inkişaf arasındakı fərqi vurğulamaq bu əlaqənin daha dolğun incələnməsinə imkan yaradacaqdır. İqtisadi artım istehsal amillərinin kəmiyyət dəyişməsi ilə bağlı olduğu halda iqtisadi inkişaf anlayışı daha geniş bir məfhum kimi istehsal amillərində mövcud olan keyfiyyət dəyişikliklərini nəzərdə tutur. İstehsal amillərinin keyfiyyət dəyişikliyi də öz növbəsində texnoloji tərəqqi, insan kapitalının inkişafı və məhsuldarlıq artımı ilə bağlıdır. Burdan da sosial-iqtisadi inkişaf məqsədli dövlət siyasəti birbaşa olaraq insan kapitalına, texnologiyaya və məhsuldarlıq artımına yönləndirilməlidir. Davamlı və stabil artımın əsasən qeyd olunan bu keyfiyyət amilləri ilə əlaqəli olduğu da müəyyən olunmuşdur.

Bu baxımdan, son illərdə insan kapitalının davamlı inkişafı, məhsuldarlıq səviyyəsinin yüksəldilməsi, yüksək əlavə dəyərli məhsul istehsalı, ixtisaslaşma, yeni texnologiyalardan yararlanma, iqtisadiyyatın innovasiya qabiliyyətinin inkişafı kimi faktorlar ön plana çıxmışdır.

Sosial-iqtisadi inkişaf və dövlət siyasətini təhlil etdiyimiz zaman milli iqtisadiyyat termini də bizim üçün xüsusi rola malikdir. Milli iqtisadiyyat haqqında ilkin nəzəri ideyalar klassik məktəbin nümayəndələri A.Smit və D.Rikardo tərəfindən irəli sürülmüşdür. Onlar İngiltərənin iqtisadiyyatını təhlil edərək belə bir nəticəyə gəlmişlər ki, bazar münasibətlərinin sistemli şəkildə inkişafı milli iqtisadiyyat üçün xarakterikdir. Milli iqtisadiyyatla bağlı fikirlər Almaniya və

Rusiyada mövcud olmuş kameralistika elmində də öz əksini tapması müəyyən olunmuşdur. Kameralistika elminin nümayəndələri iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin nəzəri konsepsiyalarını ümumiləşdirməyə cəhd edirdilər. (Qurbanov.T.M, 2013, s. 63)

Milli iqtisadiyyat anlayışı həm də kapitalist istehsalı və bazar münasibətlərinin inkişafı ilə sıx surətdə bağlıdır. Milli iqtisadiyyat öz maraqlarının ödənilməsi vasitəsilə istehsal sahələri arasındakı dinamikliyi tələb etdiyindən onun formalaşması da bu əlaqələrin kifayət dərəcədə inkişaf etdiyi mühitdə baş verir. Milli iqtisadiyyatın formalaşması cəmiyyətin iqtisadi inkişafının qanunauyğun nəticəsidir. Belə ki, iqtisadi fikrin inkişafının müəyyən bir mərhələsində artıq milli iqtisadiyyat elmin bir sahəsi kimi öyrənilməyə başlamışdır. Buna görə də, hər bir ölkənin sosial-iqtisadi inkişafının müəyyən mərhələsində artıq onun müstəqil milli iqtisadiyyatının da formalaşdırılmasına da zəmin yaranır. Lakin ölkələr iqtisadi inkişaf baxımından bir-birilərindən fərqlilik göstərdikləri üçün milli iqtisadiyyatın formalaşması da bəzi ölkələrdə bəzilərində isə daha gec baş verir.

Müasir dövrdə Azərbaycanda dayanıqlı milli iqtisadiyyatın mövcud olması üçün amillər və şərtlər olsa da, bəzi obyektiv səbəblərdən bunlardan lazımı dərəcədə istifadə edilməmişdir. Məsələn, ölkəmizdə uzun müddət hasiledici sənayenin inkişafına ciddi fikir verildiyi halda, hər bir güclü iqtisadiyyatın əsasını təşkil edən emaledici sənaye sahələri isə zəif inkişaf etmişdir. Nəticədə təbii ehtiyatlardan səmərəli istifadə edilməmiş, bu isə ölkəmizin sosial-iqtisadi inkişaf göstəricilərinə dolaylı yollarla mənfi təsirini göstərmişdir. Ona görə də, son illər neftdən daxil olan gəlirlərin əhəmiyyətli hissəsinin emaledici sənaye inkişafına yönəldilməsi fəaliyyəti ölkəmizin siyasi fəaliyyətləri arasında mühim yer tutur və gələcəyimiz üçün böyük ümidlər doğurur. Milli iqtisadiyyatın formalaşması və inkişafı hazırlanan iqtisadi strategiyanın həyata keçirilmə səviyyəsindən və fəaliyyət dairəsinə olan uyğunluğundan asılıdır. Yəni, dövlətin gerçəkləşdirdiyi daxili və xarici siyasətin bir-biri ilə tamamlanması xüsusi rol oynayır. Bu, milli iqtisadiyyatı kənar neqativ təsirlərdən qoruyaraq öz daxili imkanları əsasında inkişaf etməyə kömək edir. Milli iqtisadiyyatı xarakterizə edən başqa bir cəhət

ondan ibarətdir ki, o xalqın müəyyən ərazi daxilində mövcud olan iqtisadi, siyasi, mədəni və mənəvi birliyidir. Bu birlik öz növbəsində sosial-iqtisadi inkişaf üçün münbit şərait yaranmasına gətirib çıxardır.

Ölkəmizin sosial-iqtisadi inkişaf yolunda həyata keçirdiyi siyasi fəaliyyət xəttində 2014-cü il böhranından sonrakı dövrə xüsusi diqqət yetirmək istərdim. 2014-cü ildən etibarən neft qiymətlərinin birdən-birə azalması və ticari əməkdaşımız olan ölkələrin də iqtisadi böhran nəticəsində iqtisadi artımının sürətinin yavaşlaması ilə tədiyə balansında və qeyri-neft büdcə kəsiri, maliyyə sektorunda baş verən dəyişikliklərə görə Azərbaycanda artıq yeni iqtisadi inkişaf yanaşmasına keçid ehtiyacı yaranmışdır. Davamlı inkişafı təmin edəcək müasir sektorların üzərində fokuslanmaqla, iqtisadiyyatın sahələri arasında qeyri-ticari bölməyə nəzərən ticari sahələrin, hasilata nəzərən emalın, dövlət sahibkarlığından daha çox özəl sahibkarlığın, texnoloji tutumu aşağı sektorların deyil yüksək texnologiyalara əsaslan sektorların, aşağı ixtisaslı əməyə nisbətən yüksəkixtisasa sahib əmək tutumunun, azgəlirli bazara nəzərən yüksəkgəlirli bazarların hesabına yenidən formalaşdırılması nəzərdə tutulurdu. Milli iqtisadiyyatın strukturunun yenilənməsi biznes mühitinin daha da yaxşılaşdırılması, maliyyə və bank sisteminin yaxşılaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsi ilə yanaşı xarici iqtisadi fəaliyyətlərin də inkişaf etdirilməsi ilə mümkün idi. (http://azerbaijan.az)

Qeyd etdiyimiz kimi 2014-cü il neft bazarında kəskin ucuzlaşmanın ölkəmizin siyasi fəaliyyətində göstərə biləcəyimiz yeganə uğurlu təsiri məhz qeyri-neft sektoruna ayrılan diqqətin artırılması olmuşdur.

Təqdim olunan aşağıdakı qrafik vasitəsilə də biz ölkəmizin siyasi fəaliyyətində sosial-iqtisadi inkişafın nə dərəcədə əhəmiyyətli rola malik olduğu və bu istiqamətdə qeyri-neft sektoruna ayırılan diqqətin 2013 və 2018ci illər müqayisəli təhlili ilə tanış ola bilərik. Belə ki, 2013-cü ilə aid qeyri-neft sektorunun ÜDM-də xüsusi çəkisi 56,6 % təşkil etmiş, alt qruplara nəzər yetirdiyimiz zaman sosial və digər xidmətlər 26% hissəni təşkil edir. Bu isə o deməkdir ki artıq 2013-cü ildən etibarən sosial xidmətlər üzərində xüsusi diqqət

artması nəticəsində əhalinin sosial-iqtisadi rifahında olan əlavə dəyər artımı öz əksini həm də qeyri-neft sektorunun bölgüsündə tapmışdır.

**Diaqram 1. Qeyri-neft sahəsi üzrə yaradılmış əlavə dəyərlərin sahələr üzrə bölgüsü (2013cü il göstəriciləri)**




**Mənbə:** https://www.economy.gov.az

Növbəti diaqram isə 2018-ci ilin birinci yarısına məxsus qeyri-neft sektorunun sahələr üzrə bölgüsüdür.

**Diaqram 2. Qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin sahələr üzrə bölgüsü (2018 ci il göstəriciləri)**




**Mənbə:**https://www.economy.gov.az

İki diaqramı müqayisəli şəkildə təhlil etdiyimiz zaman sosial və digər xidmətlərin əlavə dəyərdəki payının azalmasına baxmayaraq bölgü zamanı əhəmiyyətli hissəni təşkil edir. Bu isə bilavasitə əhalinin elm, təhsil, səhiyyə, sosial müdafiə kimi dövlət xərclərinin xüsusi çəkisi ilə bağlıdır. Aradan keçən beş il

ərzində qeyri-neft sektorunun əlavə dəyər bölgüsü zamanı tikintinin payının nisbətən azaldığı nəzərə çarpır. Nəqliyyat kommunikasiya infrasturukturunun yaratdığı əlavə dəyərin payının 2018 ci ildə artaraq, dövlət tərəfindən bu sahədə edilən uzunmüddətli dönüşümlü investisiyaların gəlir olaraq artan payı müşahidə olunur.

İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafına təkan vermək üçün prezidentimizin sərəncamları və təsdiq etdiyi inkişaf proqramları əsasında KOS subyektlərinin dəstəklənməsinə, bu fəaliyyətlə məşğul olanlara güzəştli kreditlərinin ayrılmasına, kənd təsərrüfatına subsidiyaların yönəldilməsinə əhəmiyyətli miqdarda vəsait xərclənmişdir. Bu xərcləmələr çox keçmədən öz bəhrəsini verməyə başlamış və göründüyü kimi iqtisadiyyatın qeyri-neft sektorunda böyük canlanmaya səbəb olmuşdur. Qeyri-neft sənayesinin davamlı inkişafı, ölkə iqtisadiyyatının ixrac sahəsindəki qabiliyyətinin, eləcə də rəqabətə davamlı məhsulların istehsalının artırılması, məşğulluğun artırılması istiqamətində həyata keçirilən tədbirlər hal- hazırda birbaşa olaraq sosial-iqtisadi inkişafın davamlılığına təminat verir.

## 2.2. Sosial-iqtisadi inkişafın təmin olunmasında strateji dövlət proqramlarının rolu və tədqiqi

1991-ci ildə ölkəmizin suverenliyinin bərpasından sərbəst bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılması məqsədilə effektiv sosial-iqtisadi sistemin möhkəmləndirilməsi artıq vacib bir ehtiyaca çevrildi. Bu dövrdən etibarən dövlət idarəçiliyinin əsas məqsədi: ölkəmizin ərazi bütünlüyünə nail olmaq, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik və hüquqi dövlət qurulması, əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması və s. kimi bir sıra ciddi vəzifələrdən ibarət idi.

Təbii ki bu heç də asan bir mərhələ deyildi. Sosial-iqtisadi inkişafın başlanğıcı üçün zəmin yaratmaq, zamanında və düzgün qərarların qəbul olunması, müharibə şəraitindən yenicə azad olmuş xalqın rihaf səviyyəsinin yüksəldilməsi ilə yola başlamaq labüd bir qərar səviyyəsində idi. Sosial-iqtisadi inkişaf yolunda

fəaliyyətimizə nəzər saldığımız zaman bu illərdən etibarən sosial-iqtisadi inkişaf istiqamətli proqamların qəbul edildiyi, hər bir proqramın digərinin təkmilləşdirilməsində bir pillə rolunu oynadığını müşahidə etmək mümkündür.

Bu dövr ərzində fəaliyyətdə olan iqtisadi islahatların qanuniləşdirilməsi baxımdan bir mərhələ kimi 1993-cü ildə qəbul olunmuş "Azərbaycanda Sahibkarlığın İnkişafı (1993-1995)" proqramını qeyd etmək olar. Bu ilə qədər ölkəmizdə sahibkarlıq sahəsi üzrə əsassız islahatlar və sistemsiz fəaliyyət göstərən tədbirlərin ardınca belə bir proqramın həyata keçirilməsinə başlanması bu sahədə artıq ilkin uğurların əldə edilməsinə imkan yaratmış və burada fəaliyyət göstərən kiçik və orta sahibkarların sayı çoxaldaraq onların xarici iqtisadi əlaqələrinin genişləndirilməsi ilə nəticələnmişdir.

Yuxarıda qeyd olunduğu kimi qeyri-sistematik idarəetmə sistemi şəraitində həyata keçirilən bu dövlət proqramı mənfi təsirsiz də ötüşmədi. Maliyyə bank sisteminin iflic vəziyyətə düşməsi, əhalinin real pul gəlirlərində azalmanın müşahidə olunmasını buna misal göstərə bilərik. Lakin ümummilli liderimiz Heydər Əliyev tərəfindən atılmış addımlar nəticəsində 1995-ci ildən etibarən həyata keçirilən dövlət proqramları yavaş-yavaş öz bəhrəsini verməyə başladı. Bunlara misal olaraq ölkəmizdə mövcud olan kiçik və orta sahibkarlığın inkişafına yönəlmiş 1997 və 2002-ci illərdə qəbul olunmuş proqramlar, həmçinin maşınqayırma və aqrar sənayenin inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları, demoqrafik inkişaf konsepsiyası ilə bağlı, məşğulluq siyasətinin təkmilləşdirilməsi ilə əlaqədar həyata keçirilən proqramları misal çəkmək olar.

2003-cü ildə İlham Əliyevin ölkə prezidenti seçildikdən sonra qarşıya qoyduğu məqsədlərdən biri aparılan islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatında mövcud olan müsbət irəliləyişləri daha da artırmaq, əhalinin sosial-iqtisadi rifahını daha da yaxşılaşdırmaq, regionların inkişafına nail olmaq, ölkənin bütün bölgələrini sosial-iqtisadi rifah baxımından yüksək səviyyədə inkişaf etdirmək idi. Regional iqtisadi inkişafın qəliz olmasından bəhs etsək də, onu daha da vacib edən amil isə şəhər həyatında sıxlığın müşahidə olunması idi. Belə ki, bölgələrdəki iqtisadiyyatın inkişafının zəifliyi oradakı sosial-iqtisadi, demoqrafik

və ekoloji vəziyyətə mənfi təsir göstərir və nəticədə əhalinin iş üçün paytaxta axınını sürətləndirirdi. Məhz bu problem aradan qaldırmaq məqsədilə hazırlanan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" 2004-cü il 11 fevral tarixində Prezident İlham Əliyev tərəfindən təsdiq edildi. Dövlət başçısının bununla əlaqədar imzaladığı fərmanda deyilir*:*

> *"Bu gün özünün sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş Azərbaycan Respublikasında həlli vacib məsələlərdən biri regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə, oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artırılmasına və ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmaqdan ibarətdir. Bu istiqamətlərdə tədbirin həyata keçirilməsi regionların iqtisadi inkişafında mövcud olan kəskin fərqin aradan qaldırılmasını və regional tarazlığın əldə olunmasını təmin etməklə yanaşı onların iqtisadi gücünü artırar və sosial problemlərin həllini sürətləndirər".* (http://www.e-qanun.az)

Ümumiyyətlə isə, regionların sosial-iqtisadi inkişafının yaxşılaşdırılması ilə bağlı proqrama əsasən həyata keçirilməli tədbirlər üç səviyyədə müəyyən olunmuşdu: birincisi, iqtisadi inkişafın təmin edilməsi və makroiqtisadi sabitliyə nail olma tədbirləri; ikincisi, iqtisadi rayonlar səviyyəsində həyata keçiriləcək tədbirlər; üçüncüsü, hər bir rayonun xarakteristik xüsusiyyətlərinə uyğun müəyyən edilmiş tədbirlər.

Dövlət proqramı Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, Dağlıq Şirvan və Naxçıvan iqtisadi rayonları üzrə tərtib edilmişdi. Proqramda qarşıya qoyulan məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulurdu.

- Müəssisələrin istehsal strukturunu yoluna qoymaq
- Yeni istehsal müəssisələri yaratmaq
- Yerli resurslardan istifadənin səmərəsini artırmaq
- Regionların inkişafı üçün lazımi infrastrukturun yaradılması
- Aqrar sektorda islahatların növbəti mərhələsini sürətləndirmək
- İnvestorların regionlara cəlb olunmasına şərait yaratmaq

- Yeni iş yerlərinin açılmasını həvəsləndirmək
- Ölkə əhalisinin kommunal xidmətlərlə təminatını inkişaf etdirmək və s.

Dövlət proqramı istiqamətində gerçəkləşəcək tədbirlərin isə yerli və xarici sahibkarların maliyyə vəsaiti, dövlət büdcəsi, sahibkarlığa ayrılmış kömək milli fondu, kommersiya banklarının və bank olmayan kredit təşkilatlarının kreditləri, büdcədənkənar dövlət fondu, beynəlxalq təşkilatların və xarici ölkələrin maliyyə vasitələri hesabına maliyyələşdirilməsi nəzərdə tutulmuşdu.

Qəbul edilmiş bu proqramın ən böyük nəaliyyətlərindən biri isə investisiya axımının təmin olunmasıdır. Dövlət tərəfindən regionlara qoyulan investisiya rəqəmlərini buna əyani sübut olaraq göstərmək mümkündür. Belə ki, 2004 və 2008 ci ilə nəzər saldığımız zaman dövlət investisiya xərclərinin regionlara ayırılan vəsaitinin 6 dəfə artaraq 3.9 milyard manat olduğu nəzərə çarpır. Bu isə öz növbəsində regionların infrasturukturunda özünü biruzə vermiş, kənd təsərrüfatı məhsulları istehsalçılarına yanacaq və gübrədən istifadə üçün subsidiyaların verilməsi, texnika və vergi güzəştlərinin tətbiqi nəticəsində isə proqramın icra olunduğu dövr ərzində istehsal olunan məhsulun dəyərində 2,4 dəfə artım qeydə alınmışdır. Araşdırmalar göstərir ki, proqramın icrası nəticəsində bütün şəhər, rayonlar üzrə dinamik artım qeydə alınmışdır.

Dövlət tərəfindən əhalinin sosial-iqtisadi rifahının ölçülməsi və idarə edilməsində daim diqqət mərkəzində olan bir digər nöqtə isə yoxsulluqla əlaqədardır. Ölkə idarəçiliyinin bu məsələ daim nəzarəti altinda olmuş, qəbul edilən fərmanlardan ən genişmiqyaslısı isə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” olmuşdur. Bu proqram çərçivəsində 9 strateji məqsəd müəyyən olunmuşdur.

1. Makroiqtisadi sabitliyi təmin edərək, qeyri-neft sektorunu tarazlı inkişaf etdirməklə davamlı iqtisadi artıma nail olmaq;
2. Əhalinin gəlir əldə etmək imkanlarının arttırılması, yoxsulluqdan əziyyət çəkənlərin sayının azaldılması;
3. Qaçqın və məcburi köçkünlərin həyat səviyyəsinin tənzimlənməsi tədbirlərinin davam etdirilməsi;

4. Gender bərabərliyinin dəstəklənməsi;

5. Dövlət idarəetməsinin təkmilləşdirilməsi

6. Qəbul edilmiş sosial müdafiə sistemini təkmilləşdirməklə yaşlı və aztəminatlı ailələrin, sosial cəhətdən isə həssas qrupların sosial riskinin azaldılması;

7. Sosial infrastrukturla yanaşı kommunal xidmətlər sisteminin də təkmilləşdirilməsi;

8. Təhsil və səhiyyə sahəsində xidmət keyfiyyətinin yüksəldilməsi və onlardan yararlanmaq üçün bərabər imkanların yaradılması;

9. Ekologiyaya ayrılan diqqətin arttırılması, ətraf mühitin idarə olunması sisteminin təkmilləşdirilməsi.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2015-ci ildə ölkədə ümumi daxili məhsulun həcmi əvvəlki ilə nisbətən 1,1 faiz artaraq 54,4 milyard manat olmuşdur. Bununla yanaşı qeyri-neft sektorunun inkişafına ayırılan xüsusi diqqət iqtisadi artımın təmin olunmasına gətirib çıxartmış, bu isə öz növbəsində əhalinin sosial-iqtisadi rifahının artmasını bərabərində gətirmişdir.

Dissertasiya işində daha öncədən bildirildiyi kimi belə yüksək iqtisadi artım tempi iqtisadiyyatın sektorları keyfiyyət baxımından əsaslı dəyişmə olmadan, əsasən təbii resurslara yönəldilmiş iri həcmli investisiyalar vasitəsilə baş vermişdir. Kapital investisiyaları neft-qaz sektorunun dərinləşməsinə və bu məhsulların ixracının yüksəlməsinə səbəb olmuş, nəticədə büdcə xərclərində və fiscal gəlirlərdə sürətli artım müşahidə edilmiş, bu isə bilavasitə yoxsulluğun azaldılmasına və infrastrukturun inkişaf etdirilməsi kimi sahələrə də təsir göstərmişdir. Lakin ardıcıl olaraq həyata keçirilən uğurlu fəaliyyətlər nəticəsində artıq keçid proqramının əsas məqsədlərinə həm forma və məzmun baxımından nail olunduğunu qeyd etmək mümkündür.

Yeni mərhələnin əsas hədəfi iqtisadiyyatımızın rəqabətə dayanıqlığının artırılmasına və beynəlxalq təsərrüfat sisteminə uğurlu şəkildə inteqrasiyaya nail olmaqla, ölkədə dinamik sosial-iqtisadi inkişafı təmin etməkdən ibarətdir. Yeni mərhələnin sosial-iqtisadi inkişafa təkan baxımından əsas dayaq nöqtəsi

prezidentimizin fərmanı ilə qəbul olunmuş “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı” dövlət proqramıdır. Bu proqramın həyata keçirildiyi 4 il müddətində ölkəmizdə tamamilə yenilikçi iqtisadi islahatlar icra edilmişdir. Məhz bu islahatlar ölkəmizin inkişafına böyük təkan vermiş və Avrasiyanın enerji və nəqliyyat xəritəsinin ölkəmiz üçün əlverişli istiqamətdə dəyişməsinə nail olmuşdur.

Dövlət proqramı istiqamətində təyin olunmuş məqsədlərə nail olmaq, bununla yanaşı bir sıra vəzifələrin gerçəkləşdirilməsi üçün ölkə ərazisində makroiqtisadi sabitliyin qorunmasının xüsusi əhəmiyyəti vardır. Makroiqtisadi sabitliklə yanaşı dövlətimiz öz büdcə siyasətində iqtisadiyyatın əsas sahələrinin inkişaf etdirilməsi, investisiya mühitinin daha da yaxşılaşdırılması əsas inkişaf xəttini müəyyən etmişdir. İqtisadi inkişafın, büdcə və valyutadan əldə olunan gəlirlərin, məşğulluğun əsas mənbəyi kimi qeyri-neft sektoru da tarazlı və davamlı iqtisadi artıma nail olunmasında strateji amil rolunu davam etdirməkdə idi. Bu istiqamətdə 2014 və 2018-ci illərdə ümumiyyətlə iqtisadiyyatımızın, o cümlədən regionların ayrı-ayrı sahələrin inkişafının başlıca şərtləri kimi:

- Orta illik inflyasiya səviyyəsinin və milli valyutanın səviyyəsinin məqbul dərəcədə saxlanılması;
- Gömrük və vergi dərəcələrinin optimal həddə müəyyənləşdirilməsi;
- Kənd təsərrüfatı məhsulları istehsalçılarının həvəsləndirici tədbirlərinin davam etdirilməsi;
- Taxıl istehsalının artırılması və rəqabət qabiliyyətinin gücləndirilməsi;
- İstehsalçıların ixracyönümlü fəaliyyətinin stimullaşdırılması;
- Yeni iş yerlərinin yaradılmasınına şərait qurulması;
- Ümumi Daxili Məhsul göstəriciləri arasında qeyri-neft sektorunun payının yüksəldilməsi;
- Aqrar sektorun inkişafına imkan yaradılmışdır.

Regionlardakı sosial-iqtisadi dəyişim ilə bağlı həyata keçirilən proqramların effektiv nəticələrini qarşılaşdırmaq üçün Aran iqtisadi rayonunun infrastruktur və sosial-iqtisadi irəliləməsini nəzərdən keçirtmək məqsədəuyğundur. 21,43 min kv.

km əraziyə malik olan Aran iqtisadi rayonunun bildiyimiz kimi əsas iqtisadi sahələri kənd təsərrüfatı və sənayedir.

Ardıcıl olaraq həyata keçirilən sosial-iqtisadi proqramlar axarında son 10 ildə qeyri-neft sektorunun inkişafı istiqamətində Aranın gözbəbəyi sayilan pambıqçılığın inkişafı 10 dəfəyə qədər artaraq 23,3 min tona çatmışdır. Bilavasitə əhalinin sosial-iqtisadi rifahına da təsirsiz ötüşməmiş, mövsümi işlərə 22 min nəfərə yaxın işçi cəlb olunmuşdur.

Tarixi xüsusiyyətə malik olan baramaçılıq da pambıqçılıqla paralel 2014 cü ilə nisbətən müsbət istiqamətdə inkişaf göstərmişdir. Həyata keçirilən dövlət proqramının sonunda əvvəlki ilə nisbətən 2.2 dəfə çox istehsal olunaraq 37 ton barama əldə olunmuşdur.

Qeyri-neft sektorunun şaxələndirilməsi üçün geniş imkanlara malik olan Aran iqtisadi zonasında "Aqat Aqro" MMC kimi iri heyvandarlıq kompleksi, "Atena" süd email zavodu yaradılmışdır. Təkcə 2018 ci ilin sonunda kənd təsərrüfatında 55 min iş gücü işlə təmin olunmuş, bu isə rayon üzrə məşğul əhalinin 51 faizini təşkil etməkdədir.

Aşağıdakı cədvəl vasitəsilə Aran iqtisadi rayonunun mühim sosial-iqtisadi rifah göstəricilərindəki müsbət dəyişikliyi təhlil etmək mümkündür.

**Cədvəl 1: Aran iqtisadi rayonunun sosial-iqtisadi göstəriciləri**

| **Aran iqtisadi rayonu** | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|---|---|
| Əhalinin sayı | 1910,4 | 1936,0 | 1961,4 | 1985,2 | 2006,0 |
| Orta aylıq əmək haqqı | 257,3 | 276,1 | 275,9 | 271 | 284,6 |
| İşsiz status verilənlərin sayı | 10023 | 7195 | 7204 | 7671 | 7487 |
| Yeni iş yerlərinin sayı | 22619 | 25219 | 22122 | 57104 | 95980 |
| Hər min nəfərə düşən həkim sayı | 17,2 | 16,6 | 16,2 | 15,4 | 14,6 |
| Məktəbəqədər təhsil müəssisələrinin sayı | 366 | 368 | 369 | 373 | 374 |

**Mənbə**: Azərbaycan Respublikası Dövlət Statistika komitəsi, Azərbaycanın Regionları 2018

Aran iqtisadi rayonu göstəricilərinə məxsus cədvəli təhlil etdiyimiz zaman əhalinin minimum istehlak səbətini müəyyənləşdirən orta aylıq əmək haqqında 5

illik müddətdə 10 faizlik artım sosial rifahın uğurla təmin olunması əks etdirir. 4 dəfəyə qədər artırılan yeni iş yerləri isə iqtisadi zonanın əhalisinin məşğulluq probleminə böyük təkan olmuşdur. Belə ki digər xanada qeyd etdiyimiz kimi qeydiyyatda olan işsizlərin sayinda isə 25 faiz azalma müşahidə olunur.

Xüsusi olaraq qeyd edilməlidir ki, Aran iqtisadi zonası sadəcə bir nümunə olaraq qəbul olunur və dövlətin uğurlu siyasəti nəinki Aran iqtisadi zonasında ölkənin digər bütün regionlarında da sosial rifahın yaxşılaşdırılmasına təkan olmaqdadır.

Əhalinin sosial -iqtisadi rifahına xidmət edən bir digər mühim sosyal addım isə ictimai xidmətlər sahəsində həyata keçirildi. Qurulduğu dövrdən etibarən mərkəzin fəaliyyətlərindən 20 milyona yaxın insan faydalanmışdır. Bu mərkəz rüşvətxorluğa, korrupsiyaya, bürokratiyaya qarşı aparılan mübarizədə sösüz ki inqilabi rola malikdir.

İqtisadiyyatımızın inkişafı və digər ölkələr arasında nüfuzumuzun yüksəlməsi ölkəmizə marağın artmasına səbəb olmuş, buraya gələn xaricilərin də ilbəil çoxalmasına və dolayısı ilə turizm fəaliyyətinin inkişafına şərait yaratmışdır. Xalqımızın tarixi və mədəni irsini digər ölkələrə tanıtmaq məqsədilə prezidentimiz tərəfindən 2011-ci il "Turizm ili" elan edilmişdir. Bu dövrdən etibarən paytaxt Bakı ilə yanaşı, regionlarımızda da turizm komplekslərinin, istirahət mərkəzlərinin və otellərin istifadəyə verilməsi turizmin inkişafına və əhalinin istirahətinə perspektivli imkanlar yaratmışdır. Ölkə miqyasında turizm fəaliyyətləri üçün ayrılan diqqət nəticəsində son 10 ildə 14-ü regionlarda olmaqla, 35 beş ulduzlu otel istifadəyə verilmiş və bunların davamı istiqamətində işlər uğurla davam etdirilməkdədir.

“Azərbaycan 2020: gələcəyə baxış” inkişaf proqramının başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, ölkəmizdə əhalinin yüksək sosial rifahı ilə yanaşı daimi olaraq iqtisadi artım, effektiv dövlət idarəetməsi insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması ilə xarakterizə olunan inkişaf mərhələsinə nail olmaqdır. Bu konsepsiya istiqamətində atılacaq strateji

addımların bir hissəsindən bəhs edərək əhalinin sosial rifahının hansı səviyyəyə çatdırılacağını təxmin etmək mümkündür.

Ölkəmizin əlverişli coğrafi mövqeyi, geniş iqtisadi potensialı və regiondakı ticarət xəttinin mərkəzinə çevrilməsi kimi planlar ölkə əhalisinin qeyri-neft sənayesi üzrə hər nəfərə düşən ixrac dəyərinin 1000 ABŞ dollarına çatdırılması ehtimallarını daha da artırır. Bu məqsədə çatmaq üçün isə qarşıda duran əsas məsələ iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft gəlirlərinin səviyyəsinə bağlı olmadan qeyri- neft sektorunun yüksək inkişaf sürətini gələcək illərə də qoruyub saxlamaq və onun ixrac imkanlarını genişləndirməkdir. “Azərbaycan 2020: gələcəyə baxış” proqramı çərçivəsində ixraca əsaslanan iqtisadi model əsas götürülmüşdür və nəzərdə tutulmuşdur ki, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi qeyri-neft ixracının artımına səbəb olacaqdır. Qeyri-neft sənayesinin sürətli inkişafı ilə yanaşı, innovativ sahələrə təşviqin təkmilləşdirilməsi və ölkədə elmə arxalanan iqtisadiyyatı sistemin qurulması bilavasitə insan kapitalının da istehsaldakı xüsusi çəkisini daha da artıracaqdır.

### 2.3. Əhalinin sosial rifahının yüksəldilməsində dövlətin məşğulluq siyasətinin rolu və reallaşdırılmasına nəzarətin təşkili

Çağımızın ən böyük problemlərindən biri olan işsizlik dövlət səviyyəsində ələ alınaraq, uyğun sosial-iqtisadi tədbirlər həyata keçirilir. Bildiyimiz kimi işsizliyin sıfıra bərabər olduğu bir istehsal səviyyəsi mövcud deyil. Təbii işsizlik səviyyəsi istənilən istehsal tutumunda özünü biruzə verir. Digər keçid iqtisadiyyatlı dövlətlərdə olduğu kimi Azərbaycanda da baş verən böhran prosesləri yoxsulluq problem ilə üzləşməmizə səbəb olmuşdur. Beynəlxalq Təşkilatların apardıqları araşdırmaların nəticələrinə görə 1990-cı illərin ortalarında ölkəmizdə əhalinin 3/5 hissəsinə qədəri yoxsulluqdan əziyyət çəkməkdə idi. Əsaslı islahatların həyata keçirilməsi nəticəsində iqtisadi dirçəlişin başlanması yoxsulluğun azaldılması sahəsində də müəyyən irəliləyişlərə yol açmışdır. Lakin bütün bunlara baxmayaraq 2002-ci ildə yoxsulluq səviyyəsi 50 faizə yaxın bir göstərici təyin olunmuş və bu

vəziyyət dövlət tərəfindən həmin problemin həllinə daha yüksək diqqət yetirilməsini qaçınılmaz etmişdir. (TURAN- Stratejik Araşdırmalar Merkezi 2009: s.91)

Dövlətin belə bir məqamda qarşıya qoyduğu əsas məqsəd işsizlik səviyyəsini minimuma endirməyə nail olmaq və əhalinin sosial rifahının yüksəldilməsinə gətirib çıxarılmasıdır. Ölkə prezidentinin 2005-ci il 26 oktyabr tarixli sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006–2015-ci illər)” dövlət proqramı bu istiqamətdə görülən mühim tədbirlərdən biridir. Belə ki, yoxsulluq dərəcəsində olan əhalinin payını on il ərzində altı dəfə azalaraq, 2005-ci ildəki 29,3 faizdən 2015-cü ildə 5 faizə qədər azalmışdır. Bu dövr ərzində ölkə idarəçiliyinin sosial müdafiə və təminat xərclərinin artırılması fəaliyyətləri nəticəsində əhaliyə pensiya və müavinət ödənişləri də 6,7 dəfə artmışdır.

Uğurla həyata keçirilən bu proqramın ardınca prezidentimiz tərəfindən qəbul edilən fərmanları iki başlıq altında qruplaşdirmaq mümkündür.

1. Əmək gücünə sahib əhalinin məşğulluğunu təmin etmək məqsədi ilə ölkə prezidentinin 2007-ci il tarixində məşğulluq strategiyası ilə bağlı proqramın qəbulu təsdiq edilmişdir. Qəbul olunmuş bu proqramın mahiyyəti isə əmək bazarının təkmilləşdirilməsi və məşğulluq sahəsində qanunvericilik bazasının möhkəmləndirilməsi tədbirlərindən ibarət idi.

2. Azərbaycan Respublikasının regionlarının inkişafına dair 2004-2008 və 2009-2013-cü illəri əhatə edən ardıcıl iki proqramın icrasını təmin etmək. (Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, 2010: s.25) Regionların inkişafı istiqamətində görülən tədbirlər buradakı əhalinin işsizlik problemlərinə da istiqamətlənmiş, icra olunmuş əsaslı tədbirlər nəticəsində ölkəmizin məşğulluq səviyyəsində ciddi hərəkətlilik meydana gəlmiş və təkcə 2004-2010-cu illər ərzində 912.9 min yeni iş yeri açılmışdır.

Bu proqramların icrası ilə yanaşı dövlətin zaman zaman əhalinin aşağı təbəqəsinə maddi yardımların edilməsi halları da ölkə idarəetməmiz üçün səciyyəvidir. Görülən sosial sahədə təminatların sadəcə maddiyyatla məhdudlaşması həmin qrup əhalinin əhalinin yenidən əmək fəaliyyəti ilə məşğul olmasına heç bir müsbət təsir göstərmir. Məhz həmin əhali təbəqəsinin aktiv işçi

qüvvəsinə inteqrasiya etməsi üçün sosial xidmətlərə effektiv təhsil və səhiyyə xidmətlərinin, ixtisaslaşdırılmanın artırılması kimi xidmətlərin daxil edilməsi də vacibdir.

Əhalinin sosial rifahı dediyimizdə təbii ki, sadəcə istehlak səbəti, minimum əmək haqqı kimi faktorlar nəzərdə tutulmur. Sosial-iqtisadi rifahın yüksəlməsinə xidmət edən bir digər amil isə kommunal xidmətlər sektorunun keyfiyyətinin yüksəldilməsidir. Son dövrlər ərzində infrastruktura yönəldilmiş iri məbləğli investisiyalar əhalinin qaz, su və işıq təminatı kimi kommunal xidmətlərdən istifadə imkanlarını genişləndirmişdir. Kommunal xidmətlərin keyfiyyətinin kifayət qədər yüksəldilməsinə baxmayaraq, xidmətlər üzrə əsas ağırlıq hələ də dövlət sektorunun üzərinə düşür. Bu zaman isə kommunal xidmətlər bazarına özəl sektoru cəlb etməklə bu xidmətlərin keyfiyyətinin artırılmasının təmin edilməsinə və eyni zamanda, dövlətin fiskal yükünün azalmasına nail ola bilərik.

Yoxsulluğun çox-miqyaslı problem kimi qəbul edilməsi onun azaldılması üçün ölkə ərazisində hərtərəfli artıma şərait yaradılmasını daha da vacib səviyyəyə gətirir. Bu fəaliyyətlərin son nəticəsi olaraq əsas məqsəd 2023-cü ilə qədər yuxarı gəlirli ölkə statusunu əldə etməkdir. Bu baxışa istiqamətlənərək, aşağıdakı strateji məqsədlər formalaşdırılmışdır:

1. Qeyri-neft sektorunu üzrə fəaliyyətlərin təkmilləşdirilməsi yolu ilə dayanıqlı iqtisadi inkişafın təmin edilməsi və makro-iqtisadi sabitliyin təmin edilməsi.
2. Gəlir yaradan imkanların artırılması və əhalinin yoxsul təbəqələrinin əhəmiyyətli dərəcədə azaldılması.
3. Məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitlərinin yaxşılaşdırılması məqsədilə fəaliyyətlərin sistemli icrasının davam etdirilməsi.
4. Sosial müdafiə sisteminin inkişafının artırılması ilə yaşlı nəsil, aşağı-gəlirli ailələr  üçün sosial risklərin azaldılması,
5. Əsasən təhsil və səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və bərabər istifadə imkanlarının əldə edilməsi,
6. Sosial infrastrukturun və dövlət kommunal sistemlərinin təkmilləşdirilməsi,

7. Ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması və davamlı idarəçiliyinin təmin edilməsi,

8. Gender bərabərliyinin qorunması,

9. İnstitusional islahatların davam etdirilməsi və idarəçiliyin təkmilləşdirilməsi. (https://www.adb.org)

Dövlətimiz tərəfindən məşğulluq və əhalinin sosial rifahı istiqamətində qəbul olunmuş siyasi fəaliyyətlər içərisində qeyri-neft sektoru xüsusi diqqət altındadır. Bu istiqamətdə prezidentimiz tərəfindən kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində qəbul edilən yol xəritəsi də dissertasiya işinin xüsusi təhlil məqamıdır. Belə ki, inkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlığın ÜDM və məşğulluqdakı xüsusi çəkisinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, Azərbaycanda da davamlı iqtisadi inkişafın təmin edilməsində kiçik və orta sahibkarlığın əsas təsiredici amilə çevrilməsi qarşıda duran məqsədlərdən biri olmalıdır. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq üzrə istehlak malları ilə əlaqədar qəbul olunmuş dövlət səviyyəli proqram ölkə iqtisadiyyatında sahibkarlıq sahəsində rəqabətqabiliyyətliliyin və dayanıqlılığın təmin olunması istiqamətində bütün ölkə üzrə həyata keçirilən tədbirlərin bir hissəsi olaraq hazırlanmışdır.

Eyni zamanda bu yol xəritəsinin icrası qeyri hökumət təşkilatları, yerli və beynəlxalq özəl sektor tərəfdaşları ilə qarşılıqlı əməkdaşlıq şəraitində həyata keçirilmişdir.

Dövlətin məşğulluq siyasəti istiqamətində sahibkarlığa təşvik edilməsi prossesinin əsas səbəblərindən birini isə aşağıdakı qrafik vasitəsilə izah etmək uyğun olar. Göründüyü kimi, dünyanın inkişaf etməkdə olan ölkələri iqtisadi dayanıqlığın gücləndirilməsi, iqtisadi səmərəliliyin təmin edilməsi və rəqabətə davamlılığın əldə olunması üçün kiçik və orta sahibkarlığın inkişafı istiqamətində sistemli tədbirlər həyata keçirir. İnkişaf etməkdə olan ölkələr sırasında qeyd olunan dövlətimiz üçün də bu sistemli tədbirlər rol model olaraq qəbul olunmalıdır.

Global şəraitdə baş verəcək böhranlara qarşı öz iqtisadiyyatlarının daha çevik uyğunlaşdırılması üçün inkişaf etmiş ölkələr də kiçik və orta sahibkarlıq

subyektlərinin məşğulluq siyasətindəki rolundan maksimum yararlanmağa çalışır. Diaqramda da göstərildiyi kimi ABŞ və Avropa ittifaqı ölkələrində kiçik və orta sahibkarlıq subyektlərinin məşğulluqdaki xüsusi çəkisi 60 faizdən çoxdur.

**Qrafik 1: Ölkələr üzrə KOS subyektlərinin məşğulluqda payı**




**Mənbə:**https://mida.gov.az internet resurs mənbəsinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Məşğulluğun artırılması nəticəsində sosial-iqtisadi rifahın paralel olaraq müsbət istiqamətdə yüksəlməsi eyni zamanda sahibkarlıq subyektlərinə də dövlət tərəfindən xüsusi güzəştlərin tətbiq olunması imkanının yaradır. Bu məqsədlə həyata keçirilən aşağıdakı tədbirlər toplusuna və onların müsbət nəticələrini təhlil etməkdə fayda vardır.

1. Sahibkarlıq sahəsində aparılan yoxlamaların 2 il müddətinə dayandırılması.
2. Bu sahədə elektron portalın yaradılması üzrə işlərin davam etdirilməsi.
3. Sahibkarlıq fəaliyyəti üçün lisenziya və icazələrin sayının və ödənilən rüsumların məbləğlərinin dəfələrlə azaldılması
4. Ölkədə investisiyaların təşviqinin artırılması məqsədilə 7 il müddətində vergi və gömrük güzəştlərinin verilməsi
5. Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" sisteminin yaradılması
6. Ölkə ərazisindən tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiq olunması

7. Sahibkarların hüquqlarının qorunması ilə bağlı Apellyasiya Şuralarının yaradılması. (http://e-qanun.az/alpidata/framework/data/34/f_34254.htm)

Yuxarıda qeyd olunan bu güzəştlər kiçik və orta sahibkarlıq subyektlərinin dövlət tərəfindən xüsusi himayəyə alınmasının və onun təşviqi üçün növbəti atılacaq addımların göstəricisidir. Görülən bu tədbirlər nəticəsində ölkəmizdə biznes mühiti daha da yaxşılaşmış və " Doing business 2017" hesabatına görə biznesə başlama, əmlakın qeydiyyatı sahələri üzrə yüksək göstəricilər əldə olunmuşdur.

**Cədvəl 2: KOS subyektləri üzrə strateji hədəflər**

| *KOS subyektləri* | **ÜDM'də payı** | **Məşğulluqda payı** | **Qeyri-neft sektor payı** |
|---|---|---|---|
| **2020 ci ilədək hədəf** | 15 % | 20 % | 15 % |
| **2025ci ilədək hədəf** | 35 % | 40 % | 25 % |
| **2025ci il sonrası** | 60 % | 70 % | 40 % |

**Mənbə:** Azərbaycan 2020 "Gələcəyə Baxış" İnkişaf konsepsiyası əsasında müəllif tərəfindən hazırlanmışdır

2016 cı ildə qəbul olunmuş yol xəritəsi istiqamətində isə ölkəmizin strateji hədəflərini yuxarıdakı cədvəldə görüldüyü kimi 2020, 2025 və 2025-dən sonrakı illərə uyğunlaşdırmaq mümkündür.

İqtisadi inkişafın sürətləndirilməsi üçün də bir sıra amillər diqqətə alınmalıdır. Bu amillərindən səmərəli istifadə nəticəsində 10 milyona yaxın Azərbaycan vətəndaşının öz peşə arzularını gerçəkləşdirməsi və rifah səviyyəsinin yüksəldilməsi mümkün olacağı ehtimal olunur. İqtisadi şaxələndirmənin sürətləndirilməsi təkcə daxili amillərdən asılı deyil, ölkəmiz üçün mövcud olan 3 əsas potensial imkan mövcuddur ki, bu imkanları səmərəli dəyərləndirmək üçün dövlətimiz müvafiq tədbirləri həyata keçirməlidir.

- Birincisi ölkəmiz ümumi əhali sayı 300 milyon nəfərdən çox olan və ÜDM-i 3 trilyon ABŞ dollarına çatan üç iri iqtisadiyyat – İran, Türkiyə və Rusiya arasında yerləşir. İrana tətbiq edilən sanksiyalar aradan qaldırıldıqca və regiondakı digər iqtisadiyyatlar arasında yeni ticarət modelləri meydana gəldikcə, ölkəmiz üçün yeni imkanlar yaranır.

- Çinin iqtisadi gücə sahib regionları birləşdirəcək İpək yolu layihəsini həyata keçirməsi planı, bu marşrutlardan biri də Azərbaycan ərazisindən keçməsi ölkəmizin ərazisindən keçən sərnişin və əmtəə dövriyyəsinin həcmini artırmaqla həmin traektoriya boyu istehsal və nəqliyyat xidmətləri üçün yeni imkanlar yaradacaqdır. Azərbaycan təkcə tranzit ölkəsi deyil, o, həm də öz ərazisindən keçən əmtəələr üzərində əlavə dəyər yaratmaq potensialına malik olacaqdır. Ölkəmizin inkişafı üçün belə yeni dünyəvi imkanların açılması yüksək və dayanıqlı iqtisadi artım potensialı yaradır.
- Dayanıqlı iqtisadi artımı təmin edəcək investisiya qoyuluşlarında maraqlı olan Azərbaycanda qlobal investisiya meyillərini də özünə çəkməlidir. 2015-ci il ərzində əldə olunan məlumatlara əsasən Asiyadakı inkişaf etməkdə olan ölkələr dünya üzrə birbaşa xarici investisiyaların əhəmiyyətli hissəsini cəlb etmişdir. Bu mənada Asiyanın dünya üzrə ən çox investisiya cəlb edən region olması, bu invesitiyaların ölkəmizə cəlb olunabilməsi üçün əlverişli biznes mühitinin təmin edilməsi və özəl sahibkarlığın inkişafının daha da stimullaşdırılması məqsədə uyğundur.

## III Fəsil AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİ

### 3.1. Qloballaşma şəraitində Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafin təmin olunması və təkmilləşdirilməsi istiqamətləri

Dissertasiya işinin bəhs olunan bu bölməsində isə qloballaşma şəraiti və ölkəmizin bu şəraitə uyğunlaşma prosesi əsas təhlil nöqtəsidir.

Bəşəriyyətin müxtəlif ictimai-sosial qrupları arasında vahid düşüncə tərzini formalaşdıran qloballaşma termini dünyada baş verən prosseslərin ümumi-dünyəvi bir əhəmiyyəti olduğunu ifadə edir. İndiki dövrdə isə bu prossesdən kənarda qalmaq qeyri-mümkündür. Tarixi dövr ərzində cəmiyyətin müxtəlif inkişaf mərhələlərində meydana gələn qloballaşma prosesi müasir beynəlxalq əlaqələr zamanı baş verən obyektiv bir prosessdir.

**Şəkil 1. Xarici vətəndaşların bank kartları ilə apardıqları əməliyyatlar**




**Mənbə:**https://azertag.az

Qloballaşma dedikdə ağlımıza gələn biləcək ilk ünsurlardan biri müasir dünya bazarının standartlarına ayaq uydurmaq və dolayısı ilə nağdsız ödəniş imkanlarının genişləndirilməsi gəlir. Bu sahədə bir sıra dövlət tənzimləmələrinin nəticəsi olaraq Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya mərkəzi tərəfindən təqdim olunmuş son üç ilin nağdsız ödəniş üsulunun dinamikasına nəzər yetirdiyimiz zaman nağdsız ödənişlərin ümumi

tutarında 2 dəfə artım müşahidə olunmuşdur.Bu isə xarici vətəndaşlar tərəfindən ölkəmizin pul dövriyyəsinə 2 dəfəyə qədər əlavə qazanc qazandırılması deməkdir.

Tarix boyu formalaşaraq günümüzə gəlib çatan qloballaşma prosesi inkişaf zamanı bir necə mərhələlərdən keçmişdir. Əhalinin miqrasiyası və müharibənin gətirdiyi bir sıra ictimai-sosial dəyişikliklər bu prossesin birinci mərhələsi, coğrafi kəşflər dövründən başlayaraq ayrı-ayrı xalq və mədəniyyətlər arasında inteqrasiya ikinci mərhələsi olaraq qeyd oluna bilər. Qloballaşma prosesinin üçüncü mərhələsi isə inhisarçılıqla səciyyələnən kapitalizminin bazasında həyata keçir. Artıq bu mərhələdə maliyyə sistemi dövlətlə birləşərək onu öz təsir dairəsinə almağı bacardı. Bu inkişaf mərhələlərinə baxmayaraq bəşər tarixində baş vermiş dərin böhranlar, etnik və dini qarşıdurmalar hər dəfəsində qloballaşma prossesini geriləşmişdir.

Ayrı-ayrı dövrlər boyu müxtəlif sivizasiyaların mərkəzində yerləşən respublikamız da da qloballaşma prossesindən kənarda qala bilməzdi. Xalqımızın ulu öndəri H. Əliyev demişdir ki,

> *“Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb və heç də bir mənalı olmayan prosesin prespektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsini kömək etməlidir.”* (nezermedia.az)

Müasir dövrdə dünyamızda baş verən hadisə və proseslərin xarakteristikası bəşəriyyətin gələcəyinin qloballaşma ilə müəyyən olunacağını sübut edir.

Qloballaşma həm də milli mədəni ənənənlərin təsir dairəsini məhdudlaşdıraraq müxtəlif mentalitetlər arasındakı sərhədləri ortadan qaldırır. Ümumdünya inteqrasiyası ilə əlaqəli olan qloballaşma milli özünəməxsusluğun qorunub saxlanılmasına böyük manelər törədərək qərbləşməyə doğru olan meylləri daha da gücləndirir. Bir çox tədqiqatçılar, araşdırmaçılar XXI əsrin qloballaşma əsri olduğunu dəfələrlə vurğulamış, XXI əsrin məhz qloballaşma əlaməti ilə yadda qalacağını qeyd etmişlər.

Tədqiqat zamanı qloballaşmanın müsbət cəhətləri ilə yanaşı mənfi təsirlərinin də mövcud olduğu qənaətinə gəlinmişdir. Bu mənfi təsirlər sırasında siyasi, iqtisadi, ekoloji və sosial problemləri misal çəkmək olar. Siyasi problemlərə ümumdünya cinayətkar cəmiyyətlərin meydana gəlməsi, nüvə silahlarının daha geniş mühitdə yayılmasını göstərmək olar. İqtisadiyyata dövlət nəzarətinin çətinliyi, dövlətlərarası iqtisadi asılılıq, inflasiya və işsizliyin artması kimi amilləri də iqtisadi problem kimi qeyd etmək olar. Ekologiyaya qarşı insan müdaxiləsinin güclənməsi, təbii ehtiyatlardan istifadənin qeyri bərabər paylanmasını ekoloji problemlərə, miqrasiya, mədəniyyətdə milli mənəvi dəyərlərin aşınması kimi problemləri də sosial sahəyə şamil etmək olar.Yekun olaraq müsbət təsirlər dedikdə:

- Maliyyə əməliyyatları ilə əlaqədar olaraq qlobal informasiya şəbəkəsinin yaranması
- Dünyada oxşar maliyyə bazarlarının rolu və əhəmiyyətinin artması.
- Yerli bazarlardan daha inkişaf etmiş bazarlara doğru təkmilləşdirmə prossesi.

Mənfi təsirləri isə bu şəkildə müşahidə etmək mümkündür:

- Maliyyə bazarlarında böhran hallarının artımı müşahidə olunur.
- Qloballaşma prosesində real istehsal ilə əlaqəsi olmayan zəif maliyyə kapitallarının da ölkələr arasında hərəkət etməsinin həcmi və sürəti artır.

Müasir dövrdə bəşəriyyəti narahat edən ən ciddi qlobal problemlərin həlli yollarına da məhz qloballaşma prosessi sayəsində nail olmaq mümkündür. Bəşəriyyətin göstərdiyi səylərin möhkəm birliyi əsasında qlobal problem anlayışı öz əhəmiyyətini itirə bilər.

Qloballaşmanın tələb edildiyi müasir dövrümüzdə kapital axımının bəzi sahələrində yerli biznesmenlər o qədər əhəmiyyətli nəticələr əldə etmişdir ki, həmin sahələrə xarici kapitalın axınına ehtiyac qalmamışdır. Yerli sahibkarların iş təcrübəsi olmadığı sahələrinin aşkara çıxarılması və bu sahələrə xarici kapitalın cəlb edilməsi üçün uyğun şəraitin yaradılması zəruri məsələlərdəndir. Bununla

bağlı hal-hazırda ölkəmizdəki sərmayə fəaliyyəti haqqında qanun layihəsi də hazırlanır.

Qlobal problemləri isə həll etmək üçün bir dövlətin və ya dövlətlər qrupunun gücü yetərli deyildir. Bu problemləri həll etmək, ortadan qaldırmaq üçün bütün xalqlar birləşməli, ümumdünya miqyasında birgə əməkdaşlıq kimi amillər əsas rol oynamalıdır. Lakin hər bir xalqın özünəməxsus xüsusiyyəti, milli-mənəvi dəyərləri həmin xalqın, həmin millətin pasportu hesab olunur. Müasir dövrdə qloballaşma prosesində milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşmalı, mənfi və mübət cəhətlərinə diqqət yetirməliyik. "Bu gün milli mədəniyyətin və beynəlxalq mədəni əlaqələrin inkişaf konsepsiyası xalqımızın əsrlər boyu çətin, həm də təmkin və səbirlə əldə etdiyi mədəni-mənəvi sərvətlərin, habelə folklor inciləri, milli ənənələrin və mərasimlərin qorunması və təbliğini, millətlərarası mədəni əməkdaşlığın və xarici ölkərlə qarşılıqlı yaradıcılıq əlaqələrini nəzərdə tutur" (Hüseynov İ., Əfəndiyeva N.,, 2008, s. 4)

Buna görə də biz milli-mənəvi dəyərləri aşınmalardan qorumalı, milli mədəniyyətimizi millətin qloballaşmadan özünü müdafiə vasitəsinə çevirməliyik. Yalnız birgə səmərəli fəaliyyət nəticəsində mədəniyyətdə milli özünəməxsusluğu, milli-mədəni dəyərləri qorumaq və mühafizə etmək mümkündür.

Bildiyimiz kimi müasir dövrümüzdə iqtisadi dalğalanmalardan yan keçmək qeyri mümkündür. Bu dalğalanmaların əks təsirinə qarşı yürüdülən siyasət, həyata keçirilən iqtisadi islahatlar ölkə əhalisinin yaşayış standartlarının yaxşılaşdırılmasına, açılan yeni iş yerləri sayəsində əhalinin məşğulluğunun və gəlirl səviyyəsində artmıma eyni zamanda yoxsulluq dərəcəsinin də azalmasında öz müsbət nəticələrini göstərəcəkdir.

Birbaşa olaraq əhalinin sosial iqtisadi fəaliyyətinin yaxşılaşdırılması ilə bağlı olan iqtisadi islahatlardan bəhs etdiyimiz zaman ödəmə vaxtı keçmiş və xarici valyutada olan kredit borcları bildiyimiz kimi ölkə ərazisində qlobal bir problem səviyyəsindədir. Ölkədə problemli kreditlərin həcminin 1 milyard 500 milyon manat səviyyəsinə çatması isə son hədd olmuş və məsələnin həll olunması istiqamətində prezident 28 fevral tarixində "Azərbaycan Respublikasında fiziki

şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanın qəbulu etmişdir. Bu fərmana əsasən:

- Ödənişlər birinci mərhələdə fiziki şəxslərin ləğvetmə prosesində iştirak edən banklara olan ödəniş vaxtı keçmiş əsas kredit borclarının ödənilməsinə yönəldilməli, daha sonra qalan məbləğ isə həmin şəxslərin sərəncamına verilməlidir
- Bir fiziki şəxsə ödəniləcək məbləğ maksimum 5 min ABŞ dolları təşkil etməkdədir.
- Mərkəzi Bank fərman təsdiq olunduğu tarixdən etibarən fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 min ABŞ dollarınadək, milli valyutada isə 17 min manatadək olan kreditlər üzrə zamanı keçmiş kredit borclarının restrukturizasiyası məqsədilə banklara 682 milyon manat məbləğinədək dövlət zəmanəti ilə təmin edilmiş güzəştli kredit verilməlidir. (huquqiaktlar.gov.az)

Problemli hal almış bu kreditlərin həlli məsələsi ölkə daxilində bilavasitə əhalinin sosial rifahının artmasına səbəb olmaqla birlikdə dövlət və vətəndaşlar arasındakı əlaqənin möhkəmlənməsinə və fiziki şəxsləri daha səmərəli iqtisadi fəaliyyətə təşvik etməsi qaçınılmazdır.

Biz qloballaşmanın göstərdiyi tələblərə ölkəmizin milli mənafeyinə uyğun bir tərzdə cavab verib, qloballaşma prosesinə milli-mənəvi dəyərlərimizi qurban verməyərək milliyimizi yad təsirlərdən mühafizə edə bilərik.

Qloballaşmış dünya qloballaşmağa qədər olan dünyadan, sivil dünyanın ibtidai dünyadan, sənaye dünyasının aqrar dünyadan, şəhər dünyasının kənd dünyasından fərqləndiyi qədər fərqlənir. Ölkəmizin qloballaşmağa daxil olması onun ictimai-iqtisadi inkişafında yeni və əlavə resursların əmələ gəlməsi deməkdir. Geoiqtisadi cəhətdən Azərbaycan həm ənənəvi, həm də müasir tipdə bir sıra mühim rəqabət üstünlüklərinə malikdir.

Qloballaşmanı biristiqamətli təhlil etmək düzgün olmamaqla bərabər, onun konkret ölkə və konkret xalqlar üçün müsbət və mənfi cəhətlərini araşdırmaq daha məqsədəuyğundur. Qloballaşma prosesinin respublikamız üçün səciyyəvi təsirlərini aşağıdakı kimi sadalaya bilərik.

1. Qloballaşma Azərbaycanın öz milli bazar iqtisadiyyatını qorumaq, iqtisadi resurs potensialından səmərəli istifadə etmək zərurətini doğurur.
2. Qloballaşma hər cür xarici təsir ehtimalını artıran amildir. Xarici təsirlərdən yaranacaq mənfi təsirləri zərərləşdirmək üçün əvvəlcədən müəyyən tədbirlərin görülməsini vacib qəbul edir.
3. Xarici kapitaldan istifadəni genişləndirməklə birlikdə bu kapitalın təsiri altında düşməmək üçün güclü iqtisadi təhlükəsizlik mexanizminin hazırlanmasını tələb edir.

Azərbaycan Respublikası müasir şəraitdə öz müstəqilliyini daha da möhkəmləndirmək və qlobal inkişafın daha fəal iştirakçısı olmaq istiqamətində irəliləyir. O, qlobal problemlərin həllinin dünya ölkələrinin səmərəli əməkdaşlığına ehtiyacı olduğunu nəzərə alaraq beynəlxalq əlaqələrini genişləndirir, onların daha dolğun təzahür etməsinə səy göstərir.

Hazırda Azərbaycanda sosial-iqtisadi və sosial-mədəni quruculuq prosesi mühitinin yaxşılaşdırılmasına, milli-mənəvi və dini dəyərlərimizin qorunmasına və zənginləşdirilməsinə, müxtəlif ölkələrlə münasibətlərin inkişaf etdirilməsinə xüsusi diqqət göstərilir.

Bildiyimiz kimi qədim dövrlərdən etibarən ölkəmiz daim müxtəlif xalqların, müxtəlif dinə mənsub topluluqların yaşayış məskəni olmuşdur. Qloballaşan dünyaya ayaq uydurmaqdan bəhs etdiyimiz zaman 2016-cı ilin “Multikulturalizm ili” olaraq elan olunmasının da öz rolu vardır. Məhz bu elanın bir sıra obyektiv səbəbləri olduğunu qeyd etmək mümkündür. İlk olaraq Azərbaycan əsrlər boyu müxtəlif mədəni irslərin qarşılıqlı əlaqədə olduğu məkan xüsusiyyətini daşıyıb və bununla bağlı dərin tarixi mənbə formalaşdırıb. Ölkəmizdə heç vaxt etnik və dini zəmində hər hansı bir qarşıdurma olmayıb və bu proses indi də uğurla davam etdirilir. İkincisi, Azərbaycan nadir tolerantlıq mühiti bir nümunə kimi beynəlxalq aləmdə də diqqəti öz üzərinə cəlb edir. Bir digər səbəb isə ölkəmizdə multikulturalizm ənənələrinin mövcudluğu və təkmilləşdirilməsi üçün bütün vacib siyasi və sosial şəraitin mövcud olmasıdır.

Bu obyektiv səbəblərin yaratdığı münbit şəraitdən yola çıxaraq bir sıra tədbirlər həyata keçirilmişdir. İlk olaraq 2008-ci ildə Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirləri də dəvət olunmuş, bu isə ölkə tarixində ilk dəfə baş vermişdir. 2009-cu ildə ölkəmizdə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin nazirlərinin toplantısına isə Avropa Şurasından mədəniyyət nazirləri qatılmışdı. Bu təşəbbüs "Bakı prosesi" adlanmışdır və sonradan Azərbaycanda dünya dini liderlərinin görüşünün, Bakı Beynəlxalq Humanitar forumlarının və mədəniyyətlərarası dialoqların keçirilməsinə təkan vermişdir. Bütün bu tədbirlər multikulturalizm adətlərinin davam etdirilməsində ölkəmizin göstərdiyi səylərin nümunəsidir. Prezidentin sərəncamı ilə Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması isə ölkəmizin tolerantlıq prinsiplərinə sadiq qalmasının bariz nümunəsinə çevrilmişdir.

Multikulturalizmə ayrılan bu diqqətin ölkəmiz üçün gətirdiyi faydalardan söz açsaq əgər ilk növbədə bunun dövlət xərclərinə olan müsbət geridönüşündən bəhs etmək istərdim. Təsəvvür edək ki ölkəmiz hansısa dəyərlər toplusunu etalon olaraq qəbul etmişdir. Bu hal isə digər mədəniyyətlərin qarşıdurması ilə şüphəsiz ki, üzləşməmizə səbəb olacaqdır. Bu zaman ölkə idarəçiliyi cəmiyyətin bir hissəsi ilə mübarizə aparmaq məcburiyyətində qalır. Bunun üçün isə dövlət əlavə xərclər çəkməli və bilavasitə əhalisinin sosial-iqtisadi inkişafına da bir sıra maneələrlə üzləcəkdir. Məsələn, qonşumuz İranda qəbul olunmuş şiələşdirmə və farslaşdırma yoluyla sosial qruplar arasında yaranmış assimilyasiya siyasəti nəticə etibarilə mənfi təsirlə nəticələnir. Təbii olaraq, etnik azərbaycanlılar, yaxud sünni azlıqlar buna etiraz edirlər. Bu zaman yaranmış etirazları aradan qaldırmaq üçün dövlət daha sərt tədbirlər görməli olur. Nəticədə əlavə resurslar (idarəetmə, maliyyə, hərbi və s.) istifadə etmək məcburiyyətində qalır. Aardınca isə azlıqda olan sosial qrup elə dövlətə qarşı mübarizəyə qalxır ki, bu da ölkədən kənar fəaliyyət göstərən siyasi qüvvələrin ölkənin zəiflədilməsi yaxud ölkəyə təzyiq göstərilməsi üçün təsir vasitəsinə çevrilir.

Bəhs olunan bu problem biz Çində də müşaiət edirik. Burada müsəlmanların və etnik türklərin etirazları ən azından digər Şərq ölkələri üçün buraya təzyiq göstərmək imkanını yaradır. Yaxın Şərqdə baş verən qarşıdurmaların əsasında da dini fərqliliklər dayanır ki, xarici qüvvələr isə bundan istifadə edərək dövləti zəiflədərək onun məhv olmasına doğru sürükləyirlər. Məsələn, Suriya və Yəməndə baş verən münaqişələrin kökündə sünnilərin şiələrin hakimiyyətdə olmasına etiraz etmələri dayanır. Qeyd olunan bu səbəb-nəticə əlaqələrindən belə bir nəticəyə gəlmək mümkündür ki, müxtəlif sosial dəyərlərə hörmətlə yanaşmaq həm dövlət xərclərinin daha səmərəli sahələrə istiqamətlənməsinə yardımcı olacaq, həm də ölkə ərazisində mövcud olabiləcək xarici təsirləri zəiflətməyə xidmət göstərəcəkdir.

Mənfi təsirli xarici amilləri bir kənara qoyub, müsbət effektli xarici iqtisadi əlaqələrdən də bəhs etmək mümkündür. Belə ki, bu əlaqələrdən səmərəli şəkildə istifadəyə bu mexanizmin dövlət tərəfindən tənzimlənməsi öz növbəsində sosial-iqtisadi inkişafa təkan olacaqdır. Bu prosessin həyata keçirilməsi üçün dövlətimiz tərəfindən atılan addımları ardıcıl olaraq təhlil edərək, bu fəaliyyətlərin təkmilləşdirilməsi istiqamətində təkliflərimizi təqdim edə bilərik.

**Şəkil 2: Qeyri-neft sektoru üzrə əsas ixrac ölkələri**




**Mənbə:**https://azertag.az

Bu şəkildən göründüyü kimi qonşu ölkələrlə aparılan uğurlu siyasi əməkdaşlıq birbaşa olaraq ölkəmizin ixrac fəaliyyətlərinə də təsir göstərməkdədir. Belə ki, ölkəmizin qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi sırasında ilk yeri Rusiya, ikinci yeri isə Türkiyə tutmaqdadır. Fikrimcə bu siyahıdakı 5 ölkədən dördünün həmsərhəd ölkələr olmasındakı əsas səbəb qloballaşmanının axarı ilə müsbət istiqamətdə uyğunlaşıb qonşu ölkələrlə qarşılıqlı iqtisadi əlaqələrimizin möhkəmləndirilməsi əsas səbəbdir.

Ölkəmiz üçün xarici iqtisadi əlaqələrimizdə xüsusi yerə malik olan addımlardan bir digəri isə azad iqtisadi zonaların yaradılması ilə bağlıdır. Xüsusi iqtisadi zonalar dünya təsərrüfat sistemində özünəməxsus çəkiyə malikdir və bu zonaların yaradılmasında məqsəd ölkə iqtisadiyyatının mühim sahələrinin inkişafını sürətləndirmək, yerli investisiyalarla yanaşı xarici investisiyaların da cəlb edilməsinə əlverişli şərait yaratmaq, ixracatı artırmaq, istehsalda müasir texnika və texnologiyanın tətbiqinə nailolmaq, səmərəli istehsal və xidmət sahələrinin təşkilini dəstəkləmək, yeni iş yerlərinin açılmasına şərait yaratmaq və nəticədə ölkənin bütövlükdə sosial-iqtisadi inkişafına şərait yaratmaqdır.

Xüsusi iqtisadi zonaların dünyada ən çox istifadə edilən formaları azad gömrük zonaları, azad iqtisadi zonalar, azad ticarət və sənaye zonaları, azad istehsal zonaları, elmi-sənaye parkları, ofşorlar, eko-iqtisadi ərazi və s. mövcuddur.

Son dövrlərdə ölkəmizdə neft və qaz sektorundan gəlirlərin artması və qeyri-neft sənayesinin inkişaf etdirilməsinə istiqamətlənən addımlar, ölkəmizdə bir sıra xüsusi iqtisadi zonaların yaradılması və təkmilləşdirilməsini zəruri edir. Hal-hazırda ölkəmizdə fərqli adlarda XİZ-lar üçün əlverişli iqtisadi və coğrafi mühit mövcuddur və bu istiqamətdə mövcud infrastruktur yaradılmaqdadır. Xüsusi olaraq Balaxanı sənaye parkının plan və məqsədlərindən bəhs etmək belə bu zonaların ölkəmizin sosial-iqtisadi inkişafına effektini açıq aydın göstərir. Plan və məqsədləri aşağıdakı şəkildə qeyd etmək mümkündür.

Planlar; Ümumi və dayanıqlı infrastrukturun yaradılması; istehsal, emal və xidmət sahələrinin bir biri ilə əlaqələndirilərək vahid məkanda yerləşməsi; Sənayenin ətraf mühitə olan təsirlərinin azaldılması.

Məqsədlər; Təkrar emalla bağlı işlərin təkmilləşdirilməsi, Yaşıl məhsul istehsalının artırılması, İnnovasiyaya arxalanan texnologiyaların tətbiqi, Məlumat və bilik mübadiləsinin həyata keçirilməsi. (bsp.az)

Bildiyimiz kimi xüsusi iqtisadi zonalar arasında ən geniş yayılmışı qarışıq formasıdır. Ölkəmizdə isə qurulan Sumqayıt texnoparka və Balaxanı EkoSənaye parkına nəzər yetirsək görərik ki, burada da əsasən dövlət müəssisələrin rolu genişdir. İstər bu zonalarda istərsə də digər qurulacaq XİZ-larda özəl mülkiyyətin, yerli və xarici özəl müəssisələrin, həmçinin universitetlərin, tədqiqat institutlarında bu sahəyə cəlb olunması istiqamətində addımların atılmasının vacib olduğunu nəzərə alaraq qardaş ölkə Türkiyə təcrübəsindən faydalanmaq və dünya təcrübəsindən də istifadə edərək yeni sistemin hazırlanmasına şərait yaradılmalıdır. Bundan başqa XİZ-nın regionlarda qurulması üçün yeni araşdırmalar aparılmalı və əsaslandırılmış xüsusi təkliflər paketi hazırlanmalıdır. Azad İqtisadi Zonaların qurulması məsələləri ortaya çıxdığı zaman üzərində ən çox durulan ərazilər Sumqayıt şəhəri, Naxçıvan MR-nın Sədərək qəsəbəsi, Lənkəran şəhəri olmuşdur. Lakin hal-hazırda əsasən Bakı şəhəri və Abşeron iqtisadi rayonunda qurulmasına daha çox diqqət yetirilir. Azərbaycanın təbii ehtiyatları və coğrafi mövqeyi ölkəmizin digər ərazilərində də bir çox XİZ formalarının qurulması imkanlarını ortaya çıxarır. Əsasən sərhədyanı və liman ərazilərdə azad ticarət zonaların qurulması məsələlərinə baxılmaqdadır.

Belə ki, prezidentimizin Ələt bölgəsində yeni inşa olunmuş beynəlxalq dəniz limanının ərazisi daxil olmaqla xüsusi iqtisadi zonanın yaradılması üçün imzaladığı tədbir yerli istehsalın təşviqi ilə yanaşı "Made in Azerbaijan" brendinin dünya üzrə tanınmasında da əvəzedilməz xidməti olacaqdır. Ümumiyyətlə, AİZ-nin regional miqyasda Cənubi Qafqaz, Mərkəzi Asiya, İran, Cənubi Rusiya və Türkiyənin daxil olduğu və 130 milyon insanın yaşadığı bir bazara xidmət göstərməsi planlaşdırılır. (portofbaku.com)

Belə bir iqtisadi zonanın yaradılmasının ən əhəmiyyətli üstünlüyü ondan ibarətdir ki, Azərbaycan tranzit ölkə olaraq öz imkanlarını genişləndirə biləcək və ölkə ərazisinə daha çox yükdaşımalara nail olacaq.

Son dövrlər Azərbaycan ərazisində malların Avropadan və Türkiyədən Asiyaya aparılmasına olan marağın artmasını nəzərə alaraq yeni iqtisadi zonanın yaradılması Azərbaycanın imkanlarını genişləndirəcək.

Ələt iqtisadi zonasının rəsmi məlumatlarına əsasən planlaşdırılan birinci mərhələdə 15 milyon ton yükdaşıma, ikinci mərhələdə 20 milyon ton, üçüncü mərhələdə isə 25 milyon ton yükdaşıma fəaliyyətinin həyata keçməsi planlaşdırılır. Yeni iqtisadi zona, həmçinin dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına da səbəb olacaq, 2040 cı ilə qədər ölkə iqtisadiyyatının ümumi daxili məhsuluna 57 milyard dollarlıq təsiri olacağı hesablanmışdır.

Aaşağıda da qeyd olunan bu layihə həmçinin Xəzər dənizinin iqtisadi əhəmiyyətini artıraraq, beynəlxalq iqtisadi mübadilədən maksimum faydalanmaqla bu prosesi daha da əlverişli etməyə və ölkəmizin iqtisadi inkişafı naminə müasir iqtisadi alətlərdən istifadə olunmasına xidmət etməkdədir.

**Şəkil 3: Ələt Azad İqtisadi Zonasının planlaşdırılan yükdaşıma mərhələləri**




**Mənbə**: http://portofbaku.com

Qloballaşma ilə bağlı deyilən fikirlərdən birində isə “Qloballaşma ikitərəfli prosesdir. O, bolluq verməyə, məhsuldarlığı, istehsalın səmərəliliyini artmağa qadirdir digər tərəfdən isə, o qeyribərabərliyi dərinləşdirir, yeni şəraitdə

uyğunlaşman çətinləşdirir, müxtəlifliyi azaldır, vətəndaş cəmiyyətinin əsaslarını sarsıdır" şəklindədir. (Mextiev.R., 2004, s. 155)

Bildiyimiz kimi Azərbaycan möhtəşəm enerji ehtiyyatlarına sahib olmaqla birlikdə bu ehtiyyatlar bizim iqtisadi artım və inkişafımızın əsasını təşkil edir. Mövcud vəziyyət isə yola ölkəmizin neft və qazdan asılılığının davamlı olacağı və ixracın biristiqamətli olduğu düşüncəsini yaradır. Bu düşüncə o zaman öz təsdiqini tapa bilərdi o halda ki ölkəmizdə vəziyyətin dəyişilməsi ilə bağlı heç bir tədbir görülməsin. Lakin bildiyimiz kimi hal hazırda Azərbaycanda qeyri-neft sektorunun inkişafina son zamanlar xüsusi diqqət ayrılmaqdadır.

Müasir dövrdə iqtisadi tərəqqi innovasiyalar ilə müəyyənləşir və bunun nəticəsində varlı ölkələr daha da varlanırlar. Daha öncədən qeyd edildiyi kimi, qloballaşma iqtisadiyyata təsirin milli imkanlarını məhdudlaşdırmış və hətta modernləşmə modelinin tətbiqi zamanı əks istiqamətlənmiş meyllər də müşahidə edilmişdir. Buna görə də, hər bir dövlətin özünə xas olan inkişaf konsepsiyalarının müəyyən edilməsi daha məqsədəuyğundur.

Fikrimcə müasir dövrdə məqsədin təyin olunması, ona nail olmaq üçün yolların axtarılması, metod və mənbələrin təkmilləşdirilməsi kimi strateji planlaşdırma metodlarından istifadə ölkəmizin üçün səciyyəvi hal olmalıdır. Bu strateji planlaşdırmanın əsas məqsədi bütün təsərrüfat subyektlərinin maraqlarını ümumillikdə əhatə edərək, son nəticədə dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasıdır.

## 3.2. Dövlət mexanizmlərinin Azərbaycanda davamlı inkişafın təmin olunması və həlli yolları

Dissertasiya işinin üçüncü bölməsində isə əsas məqsəd inkişaf etmiş ölkələrin iqtisadi inkişaf modelləri ilə tanışlıq və ölkəmiz üçün uyğun strateji addımların təklif olunmasıdır. Belə ki bu istiqamətlərdə aparılan araşdırmalar nəticəsində zəngin yanacaq-energetika ehtiyyatlarına sahib olmaqla birlikdə sosial-iqtisadi inkişaf yolunda xüsusi yol qət etmiş Avropa ölkəsi Norveç modeli uyğun görülmüşdür.

Bu model Nordic modeli vəyaxud sosyal demokratiya modeli də adlandırılır. Bu modelin təməlində beynəlmiləllik, sosial dayanışma və müxtəlif qruplar arasında bərabərlik kimi düşüncələr dayanır. Burada yuxarı vergiləndirmə səviyyəsinin olması ilə yanaşı orta sinif və çalışan əhali üçün çox istiqamətli sosial yardımlar təmin olunur. Bu modeli digərlərindən fərqləndirən ən əsas xüsusiyyət isə dövlətin ilk müdaxiləedici qüvvə olaraq qəbul edilməsidir.

Qeyd etdiyim kimi Skandinaviya ölkələrində tətbiq olunan bu modelin xüsusi olaraq Norveçdə tətbiq istiqamətləri müəyyən olunmuş, zəngin neft ehtiyatlarına sahib ölkəmiz üçün müəyyən təkliflər edilmişdir. İlk olaraq Norveçin sahib olduğu sosial-iqtisadi rifahın ən mühim səbəbi onun etnik və mədəni qruplaşmalarla birlikdə bir bütün olma siyasəti və sosial bərabərlik anlayışının yeridilməsidir. Bununla bərabər Norveçdə mövcüd olan beynəlxalq siğorta tətbiqi, məşğulluq siyasəti, pulsuz təhsil imkanları, sosial yönümlü xidmətin tətbiq olunması professional şəkildə həyata keçirilir.

Neft ehtiyatları ilə zəngin olan Norveçin neftdən əldə olunan gəlirlərinin idarə olunması uğurlu model olaraq qəbul olunmuşdur. Bu modelin qəbul olunmasının əsas səbəbi şüphəsiz ki Norveç Dövlət Pensiya fondunun uğurlu fəaliyyəti nəticəsidir. Ümumiyyətlə Neft gəlirlərinin idarə olunmasında Norveç modelini araşdırarkən birsualın cavabını bilmək çox vacibdir: burada gəlirlərin toplanması və idarəsinin əsaslandığı qanunverici baza necədir?

Norveç qanunvericiliyində bununla bağlı qəbul olunan qanun Dövlət Pensiya Fondu- qlobal aktıdır. Fondun məqsədləri, idarəetməsi, fəaliyyəti, investisiya

strategiyası- bir sözlə hər şey bu akt əsas götürülərək müəyyən edilir və həyata keçirilir. Akta əsasən Fondun əsas məqsədi mərkəzi hökümətin maliyyə ehtiyatlarını qoruyub saxlamaq, dövlət neft gəlirlərinin istifadəsini uzun müddətdə həyata keçirərək effektiv pensiya xərclərini maliyyələşdirməkdir. Burada gəlirlərin idarə olunmasında elə bir sistem qurulmuşdur ki, indiki dövrlə yanaşı həm də gələcək nəsil neft gəlirlərindən yararlanma imkanına sahib olacaqdır. Fond maliyyə nazirliyinin mülkiyyətində olmasına baxmayaraq fondun ehtiyatları mərkəzi bankda açılan hesabda toplanılır və vəsaitlərin idarəsi mərkəzi bankın nəzarətində aparılır. Bu məqamda ölkə iqtisadiyyatının Norveçlə bənzərliyini vurğulamaq mümkündür. Belə ki eynilə ölkəmizdə də neft və qaz ehtiyatlarına dair sazişlərdən əldə olunan gəlir Azərbaycan Respublikası Dövlət Neft fondunda toplanmaqdadır. Təklif olaraq bu fondun fəaliyyətinin maksimum şəffaflığının təmin olunması və gələcək nəsillərə saxlanılması qeyd edə bilərik.

Bəs Norveçin uğurlu inkişaf modelinin tək dayağı neft-qaz sektorundan əldə olunan gəlirdirmi? Təbii ki bu uğur sadəcə təbii ehtiyatlara arxalanmır. Bu uğurlu modelin arxasında insan kapitalına qoyulan investisiyanın geridönüşü də durur.

Norveçin insan inkişafı üzrə yüksək nailiyyətlərində ölkənin təbii ehtiyatlardan, xüsusi ilə neft gəlirlərindən səmərəli istifadə edilməsindəki təcrübəsi də çox maraqlıdır. Ümumiyyətlə, neft gəlirlərinin bölüşdürülməsində Norveç modeli ən perspektivli model olaraq qəbul edilir. Dövlət idarəçiliyi neftdən əldə edilən gəlirlərlə bir tərəfdən neft sənayesinin müxtəlif sahələrini inkişaf etdirmiş, digər tərəfdən də insan kapitalına çox ciddi investisyalar qoyulmuşdur. Bu gün Norveçin rifah səviyyəsinin bu dərəcədə olması bilikli iş gücü sayəsində olmuşdur. Demək olar ki, insana qoyulan investisiya Norveçin iqtisadi yüksəlişinin arxasında duran ən önəmli amildir. Ayrıca Norveç modelinin uğurlu olmasında neft gəlirlərinin idarə olunması istiqamətində qurulan fondun fəaliyyətləri və gəlirlərin yerləşdirilməsində göstərilən yüksək səviyyəli fəaliyyətin rolunu xüsusi qeyd etmək lazımdır. Norveç dövlətinin nailiyyətlərində qeyri-neft amillərinin təsiri əhəmiyyətli olsa da, bu uğurda neftin rolu danılmazdır. Bu gün adı çəkilən ölkə dünya rifah sıralanmasında ilk yerləri bölüşür.

Təzadlı bir hal olsa da dünyada bəzi ölkələr var ki, neft ehtiyyatları ilə zəngin olmasına baxmayaraq əhalisinin böyük bir qismi hələ də yoxsulluqdan əziyyət çəkməkdədir. Norveçdə isə iqtisadiyyat, xüsusən ixracat neftdən aslı olsa da, bu hal iqtisadi problemlərlə müşahidə olunmur. Ölkə güclü insan kapitalına sahibdir və orta təbəqə üstünlük təşkil edir. Norveç uğurunun səbələri ümumi olaraq belə sıralamaq olar:

1. Norveç bu sahənin qanunverici bazasını yaradaraq, hər şey bu qanuna istinadən edildi;
2. Dövlət əsas investisiyanı insan kapitalının inkişafına yönəltdi;
3. Neft istehsalı prossesi zamanı şəffaflıq təmin olunaraq korrupsiyaya imkan verilmədi;
4. Neft gəlirlərinin yığılması və istifadə olunmasında da peşakarlıq nümayiş etdidirdi;
5. Neft gəlirləri və dövlət büdcəsini biri-birindən ayrılaraq neftlə bağlı bütün gəlirlər neft fondunda toplandı, qeyri-neft büdcəsi hazırlandı, büdcə kəsiri varsa neft vəsaitlərinin istifadə edildi. Heç bir xarici borclanmaya gedilmədi;
6. Neft gəlirləri çox aşağı risklə idarə etməyə nail oldu;
7. Neftdən gələn gəlirlərin idarəsində tam şəffaflıq təmin edildi.

Göründüyü kimi, Norveç təbii resursları olmasa belə yüksək rifah səviyyəsini əldə edəcəkdi. İnsan kapitalı ehtiyatı Norveçin iqtisadi yüksəlişinin arxasında duran əsas gücdür. Təbii resurslar isə ikinci dərəcəli amillər arasındadır. Beynəlxalq təcrübə bir daha sübut edir ki, insan kapitalı təbii resurslar olamadan belə yaşayış standartlarını yüksəldə bilər ( Sinqapur və Yaponiyada olduğu kimi ). Digər tərəfdən, tədqiqatımız göstərir ki inkişafetmiş insan kapitalına sahib olmadan təbii resurslar inkişafda çox az təsir göstərir və ya vəziyyəti daha da pisləşdirir (Konqo). Qloballaşma şəraitdə intellektual sərvət inkişafın əsas mərkəzinə çevrilir, təhsilin keyfiyyəti xüsusi əhəmiyyət kəsb edir. İnsan inkişafında təhsil göstəricilərinin vacibliyi qloballaşma prosesi və elmi- texniki tərəqqi ilə birbaşa əlaqəlidir. Alimlərin fikrinə görə milli gəlirin təxminən 30-40% artımını təhsil verir. Skandinaviya ölkələrində təhsilin, elmin inkişafı onların gələcəyə yönümlü

əsas strateji məqsədləri sırasındadır. Ümumiyyətlə, insan kapitalına qayğı, insan inkişafı Skandinaviya ölkələrinin əsas fundamental siyasətidir.

Ölkəmiz üçün nümunə olaraq qəbul edilməli siğorta sistemi fikrimcə növbəti təkliflər sırasındadır. Norveçdə səhiyyə xidmətlərinin tətbiqi və maliyyələşdirilməsi beynəlxalq siğorta qanunu ilə tənzimlənir. Norveç öz büdcəsinin təqribi 35 faizi sosial müdafiə və sağlamlıq sahəsinə ayrılmaqdadır. Sağlamlıq və sosial müdafiə sistemi beynəlxalq siğorta sistemi faizlərindən yararlanmaqdadır. Bu faizlər əmək haqqının 25 faizini təşkil edir. Ev qadınları, işsizlər, tələbələr bu faizlərdən azad olmaqlarına baxmayaraq eyni haqlardan yararlanmaqdadır.

Məşğulluqla bağlı Norveçin mövcud strategiyasını araşdırdığımız zaman əlil insanlara xüsusi diqqət ayrılması nəzərəçarpan məqamlardan biridir. Belə ki, əlil şəxslər iş həyatına başlamadan öncə onlar üçün xüsusi planlanmış təhsil sisteminə daxil olurlar. Bu planlaşdırılmış sistem vasitəsilə əlil şəxslərə peşə seçimində yardımcı olacaq insanlar dəstək olmaqdadır.

Yetkinlik yaşına çatmış əlillər üçün isə yaşadıqları ərazidə dövlət xətti ilə tibb bacısı və təmizlik işləri üçün xüsusi şəxlər təyin olunur. Əlil şəxslər üçün əmək haqqının bir qisminin işsizlik siğortası tərəfindən qarşılandığı, az əmək sərfiyyatı tələb edən işlər təyin olunmaqdadır. Ölkəmizin sosial-iqtisadi fəaliyyətlərində də əlil şəxslərə qarşı eyni diqqətin ayrılması arzuolunandır. Məşğulluğun əhəmiyyətli bir hissəsini təşkil edəcək bu topluluq həmçinin özünün və ətrafının da sosial rifahına müsbət təsir göstərəcəkdir. Əmək və Əhalinin sosial müdafiə nazirliyində də həmçinin "Əlilliyi olan şəxslərin məşğulluq imkanlarının artırılmasına dəstək" layihəsi çərçivəsində biznes strukturları ilə əməkdaşlıq edərək bu şəxslərin cəmiyyətə qazandırılması istiqamətində bir sıra addımlar atılmaqdadır.

Ümumiyyətlə Norveçin sosial-iqtisadi rifahı 3 əsas istiqamət üzərində qurumuşdur. Birincisi Norveç vətəndaşlarının hər biri üçün sosial iqtisadi rifah programları əlçatandır. İkincisi hər bir vətəndaş gəliri ilə eyni səviyyədə xidmət sektorundan da faydalanmalıdır. Son olaraq isə bütün sosial xidmətlər özəl sektor tərəfindən deyil dövlət tərəfindən qarşılanmalıdır.

Sosial-iqtisadi inkişafdan bəhs etdiyimiz zaman İnsan İnkişaf İndeksinə də müraciət edərək bu indeksin göstəricilərinin əhalinin rifahını nə dərəcədə əks etdirdiyini müəyyən edəbilərik. Uzun və sağlam ömür, təhsil səviyyəsi və layiqli yaşayış standartları iqtisadi inkişaf və insan inkişafı arasındakı sərhəddi kəskin olaraq müəyyən edərək, göstərici vasitəsilə əhalinin rifahının arttırılmasında sadəcə gəlir dağılımının deyil eyni zamanda səhiyyə və təhsil imkanlarının da xüsusi rolu araşdırılmışdır və ümumi daxili məhsula nisbətən əhalinin rifahını daha geniş şəkildə özündə əks etdirir.

III nəticələri həm də ölkənin doğru strateji addımları atıb-atmadığını və resurslardan səmərəli istifadə olunub olmadığı barəsində bizə məlumat verir.

**Cədvəl 3: Ölkələrarası insan inkişaf indeksi**

| Ölkələr | 2010 | 2015 |
|---|---|---|
| 1.Norveç | 0,939 | 0,949 |
| 5.Singapur | 0,911 | 0,925 |
| 10.Kanada | 0,903 | 0,920 |
| 10. ABŞ | 0,910 | 0,920 |
| 33. Qətər | 0,827 | 0,856 |
| 38.Səudiyyə Ərəbistanı | 0,804 | 0,847 |
| 42. BƏƏ | 0,824 | 0,840 |
| 49. Rusiya | 0,785 | 0,804 |
| 56. Qazaxıstan | 0,766 | 0,794 |
| 71.Türkiyə | 0,737 | 0,767 |
| 78. Azərbaycan | 0,741 | 0,759 |

**Mənbə:**https://tez.yok.gov.tr resurs mənbəsinə istinadən müəllif tərəfindən hazırlanmışdır.

Norveçin insan inkişaf indeksində birinci yerə sahib olması bu ölkənin bizim üçün rol model olaraq qəbul edilməsini məqbul etməkdədir. Təhsil və səhiyyə istiqamətində olunan xərclərin xüsusi çəkisi birbaşa olaraq əhalinin sosial həyatının da rifahına səbəbdir, bu indeksin nümunəsi həm də qeyri neft sektorunun inkişaf etdirilməsində də ölkəmizə yol göstərə bilər. Norveçin neft-qaz sektorundan əldə olunan gəlirlə yanaşı balıqçılıq təsərrüfatını da yüksək səviyyədə inkişafa nail olduğu hamımıza məlumdur. Eynilə ölkəmizdə də balıqçılıq təsərrüfatının inkişafı üçün geniş perspektivlərimiz mövcuddur. Dövlət tənzimləməsi bu məsələdən də yan keçməmiş və balıqçılıq təsərrüfatına xüsusi diqqət ayrılması məqsədilə "Azərbaycan Elmi-Tədqiqat Balıqçılıq Təsərrüfatı

İnstitutu” yaradılmışdır. Bu institutun ən böyük nəaliyyəti isə balıqların süni artırılması sahəsində ilk dəfə olaraq orijinal metod işlənib hazırlanmasıdır ki, hazırda fəaliyyət göstərən dünyanın bütün nərə balıqartırma zavodlarında bu metoddan istifadə olunur.

Davamlı inkişafdan bəhs etdiyimiz zaman bu inkişafın ölkəmizdə ilkin olaraq hansı mənbədən qaynaqlandığını araşdırmaq bizim üçün bu mənbədən səmərəli istifadə etmək və onu qoruyub gələcək nəsillərə də ötürmək danılmaz bir reallıqdır. Bildiyimiz kimi müstəqillik illərindən etibarən ölkəmizin sosial-iqtisadi rifaha doğru addımlamasının ən mühim qaynağı yanacaq-energetika kompleksidir. Qlobal şəraitdə artıq yanacaq-energetika komleksində də müəyyən islahatlar keçirilməsi labüd hal olmuşdur. Dövlət mexanizmləri tərəfindən yanacaq-energetika kompleksinin inkişaf perspektivləri araşdırıldığı zaman iki əsas model üzərində durulur; xammal və innovasiya-texnologiya modeli.

Xüsusi olaraq qeyd olunmalıdır ki model seçimi etdikdə, əldə olunan müsbət keyfiyyətləri innovasiya-texnoloji inkişaf əsasında həmin modellerin müsbət meyilləri ilə sintez etmək lazımdır. Bu zaman iqtisadiyyatın inkişafı ilə yanaşı xalqın sosial-iqtisadi rifahını da təmin etmiş oluruq. Xammal modeli davamlı olaraq ölkənin yanacaq-xammal kompleksinin inkişafına istiqamətlənməni nəzərdə tutur. İnnovasiya-texnologiya modeli isə iqtisadiyyatımızın enerji daşıyıcılarının istehsalı və ixracının həddindən artıq asılılığından qurtulmağı nəzərdə tutur. Bu proses ancaq yüksək texnologiyalar və rəqabətqabiliyyətli sənayenin inkişafı hesabına baş verə bilər. Ayrı-ayrı rəqabətqabiliyyətli sahələr üzrə innovasiya inkişafı əsasında effektiv sənaye siyasətinin aparılması bu sahələrin sürətli inkişafına və dünya bazarında ölkəmizin rəqabət üstünluklərinə səbəb olacaq.

Yeni texnologiyalara, biliklərə, idarəetmə formalarında əsaslanan innovasiya modeli yanacaq-xammal sektorlarından asılılığın mərhələli azaldılmasını nəzərdə tutan ölkənin sosial-iqtisadi inkişafının əsasıdır. İqtisadiyyatın dayanıqlı və yüksək keyfiyyətli inkişafa keçirilməsinin əsasında ETT, ölkənin yeni texnologiyaları tətbiq etmək və satmaq qabiliyyəti durmalıdır. Bu günün tələbi olaraq Azərbaycan həm industrial dövrün, həm də qloballaşmanın çağırışlarına cavab verməyə qadir

olmalıdır. Bu, öz növbəsində beynəlmiləlçilik, modernləşmə, qloballaşma və rəqabət proseslərini əks etdirən yeni reallaşdırmaya adaptasiya olunma ehtiyacını üzə çıxarır.

Məhz yeni reallaşdırmaya adaptasiya olunma müddətində olduğumuzu nəzərə alaraq, bu məqamda A.Smith'in bu ifadəsini işlətmək uyğundur. Belə ki, o, "dövləti ən aşağı mərhələdən rifahın ən yüksək pilləsinə qaldırmaq üçün yalnızsülh, yüngül vergilər və idarəetmədə dözümlülük lazımdır" ifadəsini işlətmişdir. Deyilənlərin bilavasitə Azərbaycana da aidiyyatı var. Yuxarıda adları çəkilənlərin hər biri əksərən dövlət tərəfindən müəyyənləşdirilir. Dünya təcrübəsi göstərir ki, dövlətin idarəetmədə rolu heç də hər zaman dövlət mülkiyyətinin xüsusi çəkisi ilə müəyyən edilmir.

Bu təcrübənin sübutu kimi inkişaf etmiş ölkələr sırasında Yaponiyanı göstərmək olar. Ümumi milli məhsulda dövlət strukturlarının payına görə bu ölkə ən sonuncu yerdə olmasına baxmayaraq bu ölkənin iqtisadiyyatına güclü dövlət təsirinin olmasında heç bir şüphə yoxdur. "İnzibati idarəetmə" anlayışı Yaponiyada bilavasitə göstərişlərə deyil metodlar sistemi ilə həyata keçir. Buraya firma və ya ayrı-ayrı biznes sturkturlarının hökumətin sövq etmək məqsədi ilə təsiretmə, məsləhət və inandırma metodları daxildir. Bu metod "yamaqoya" prinsipi adlanır ("Yamaqoya"-dağlarda qorunmaq üçün bir yerdir və bunu bilən alpinistlər daha cəsur və qoçaq olurlar). Eynilə belə qorunmaq üçün yer rolunda dövlət çıxış edir və innovasiya və investisiyalarda ETT-dən yaranacaq riskləri öz üzərinə götürür. (Aliyev.İ.H, 2010, s. 40)

Azərbaycanda isə sosial-iqtisadi münasibətlərin transformasiya prosesi bir qədər uzanmışdır. Bu, bazar subyektlərinin qarşılıqlı əlaqə və inkişafının təmin edilməsində onların son maraqlarının uyğunluğunu müəyyən edən dövlətin rolunun tam qiymətləndirilməməsi nəticəsində baş vermişdir. Texnoloji yeniliklərə ayaq uydurmaq məqsədilə bir sıra nümunələrə nəzər yetirərək texnoloji yeniliklərlə bağlı fəaliyyət rejimini ölkəmizdə də tətbiq edə bilərik. Misal olaraq Qərbi Avropada texnoloji qurumlar hər yeddi-on ildən bir avadanlıqlarını yeniləşdirirlər və bu prosesi öz sənayesinin texnoloji səviyyəsinin artmasında maraqlı olan dövlət

stimullaşdırır. Dövlət, inkişaf tempi itirilə bilən istiqamətləri təhlil edərək belə kompaniyalara 2- 2,5 faizlə güzəştli kreditlər verir. Çində dövlət yeni avadanlığın alınmasına qarşılıqsız subsidiyalar ayırır və məhsulun dünya bazarına irəliləməsi üçün ixracatçılara vergi güzəştləri verir.

Bundan başqa əlavə etmək lazımdır ki, xammal ehtiyatları ilə zəngin ölkələrdə xammala dünya qiymətlərinin əlverişli inkişaf edən tələbatı müşahidə edilən zaman, özünə arxayınlıq sindromu yaranır, iqtisadiyyatda islahatların aparılması və yeni institutların formalaşması strategiyası haqqında atılacaq addımları ləngiyir. Və bunun nəticəsi olaraq da təbii resursların ixracı, istehlak mallarının idxalı ilə ölkə uzun müddət inkişaf etməkdə olan ölkələr siyahısından çıxa bilmir. Bu problemlə mübarizə istiqamətində isə dövlət mexanizmləri birbaşa olaraq qeyri-neft sektorunun inkişafına yönəlmiş və son 10 il ərzində bu sahəyə xüsusi diqqət ayrılmışdır. Belə ki son olaraq Mərkəzi bankın cari əməliyyatlar hesabının son dövrünə dair açıqladığı məlumatda müsbət görünümlü amillər sırasında məhz xarici ticarət profisitinin 1,4 dəfə, qeyri-neft sahəsindəki ixracın isə 14,1% artması xüsusi olaraq qeyd edilib. Bu isə qeyri-neft sahəsinin rəqabətə dayanıqlı inkişafını təmin etmək istiqamətində həyata keçirilən iqtisadi islahatlar nəticəsində onun imkanlarının genişləndiyi, yeni istehsal sahələrinin yaradıldığı, idxalı əvəzləyən məhsulların yerli istehsalı hesabına qeyri-neft məhsulları ilə təminolunma səviyyəsinin yüksəldiyi və ixracın artdığı göstəricisidir.

**Qrafik 2: İxrac malları üzrə statistik göstəricilər**




**Mənbə:**http://iqtisadiislahat.org

Yuxarıdakı qrafikdə son on il ərzində Azərbaycanın ixrac mallarının neft və qeyri-neft sektoru ilə paylaşılma səviyyəsi əks olunur. Aratan və azalan istiqamətdə irəliləyən ixrac malları səviyyəsində 2014-cü ildə dünya bazarında neft qiymətində kəskin ucuzlaşma nəticəsində kəskin olaraq azalma müşahidə olunur. Bu dövrə qədər neft ehtiyatlarına güvənən ölkəmizin böyük təşvişlə üzləşməsi və ixrac malları üzrə strategiya dəyişikliyinə gedilməsinə səbəb olur. Və bunun nəticəsi olaraq elə 2014-cü ilə qədər qeyri-neft sektorunda aparılan islahatlardakı boşluqlar özünü biruzə vermişdir. Düzdür, bundan əvvəl də dövlət qeyri-neft sənayesinin inkişafını əsas sahə kimi elan etməsinə baxmayaraq, qeyd etdiyimiz neft qiymətlərindəki ucuzlaşmasından sonra bu sektorun inkişafı labüd, qaçılmaz zərurətə çevrildi ki, bu sahədə işlər sürətləndirildi.

2018-ci ildə qeyri-neft ixracı artım dinamikası göstərmiş, ölkənin qeyri-neft ixracı öncəki ilə nisbətən 9,8% artaraq 1.6 mlrd dollar təşkil etmişdir. Bununla yanaşı Mərkəzi bankın cari əməliyyatlar hesabındakı neft və qeyri neft sektorunun verilənlərinə nəzər yetirmək də məqsədəuyğundur. 2018-ci ilin yekunu üzrə cari əməliyyatlar hesabına nəzər yetirdiyimiz zaman 6.1 mlrd. dollar (2017-ci ilə nəzərən 3.6 dəfə artım) məbləğində profisit yaranmış, o cümlədən neft-qaz sektoru üzrə profisit 12,9 milyard dollar səviyyəsinə çatdığını müşahidə etmiş oluruq.

2017 ci ildə isə bu göstərici 7,2 milyard dollar olmuşdur. Qeyri-neft sektorundakı göstəricilər isə göründüyü kimi CƏB kəsri 6,8 milyard dollar həcmində olmasına baxmayaraq neft-qaz sektorunun profisiti digər sektorların kəsrini bağlamışdır.

**Cədvəl 4: Neft-qaz və digər sektorlar üzrə cari göstəricilər**

| ***Göstəricilər (mlrd Abş dolları)*** | *Daxilolmalar* | *Ödənişlər* | *Fərq* |
|---|---|---|---|
| Neft-qaz sektoru | 19,839,505 | 6,970,429 | 12,869,076 |
| Digər sektorlar | 8,444,006 | 15,262,005 | -6,817,999 |

**Mənbə:** Mərkəzi Bank cari əməliyyat hesabı göstəriciləri əsasında müəllif tərəfindən hazırlanmışdır

CƏB profisitinin əsas amilləri isə aşağıdakılardır:

- İxracatımızın neft-qaz sənayesi üzrə 40%, qeyri-neft üzrə isə 10% artması;
- Ölkəmizin xarici ticarət balansında 1.6 dəfə artan profisit.
- Xidmətlər balansında kəsrin 1.6 dəfə azalması, o cümlədən, tikinti xidmətləri üzrə kəsirin 1.9 dəfə (1.1 mlrd dollar) və digər işgüzar xidmətlər üzrəkəsirin 1.5 dəfə (392 mln dollar) azalması
- Təkrar gəlirlər səviyyəsində isə profisitin 3.2% artım göstərməsi.

Yuxarıdakı qrafikdən də göründüyü kimi hal hazırda neft-qaz sektoru hələ də ölkə iqtisadiyyatının lokomotivi rolunda olmağa davam edir. Onunla paralel şəkildə artım göstərən qeyri-neft sektorunun inkişaf xəttini isə növbəti diaqram vasitəsilə təhlil etmək mümkündür.

**Diaqram 3: Qeyri-neft sənayesinin ümumi buraxlışının strukturu**




**Mənbə:** https://www.economy.gov.az

Yuxarıdakı diaqramın daha ətraflı izahatını verdiyimiz halda qeyri-neft sənayesinin məhsul istehsalında mədənçıxarma sənayesinin payı 3.0% və ya 305.2 milyon manat, emal sənayesinin payı 74.4% və ya 7474.8 milyon manat, buxar, qaz və elektrik enerjisi istehsalı 19.5% və ya 1954.1 milyon manat, su təminatı, tullantıların təmizlənməsinin payı isə 3.1% və ya 313.8 milyon manat təşkil etmişdir. (economy.gov.az)

Xüsusi olaraq qeyri-neft emalı sənayesinin strukturunu paylara ayırdığımız zaman 34,3 faizlə qida məhsulları və içki istehsalı ən yuxarı paya sahibdir.

Dövlət əsas diqqət mərkəzində olan tədbirlər sırasında aztəminatlı təbəqənin müdafiəsi, sosial xarakterli xərclərin ödənilməsini və nəhayət iqtisadiyyatın yeni bazar prinsiplərinə uyğunlaşdırılması da durur. Dövlət sektorunun müasir dövr üçün fəaliyyət istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İstehsal sferası
2. Sosial müdafiə sferası
3. Tənzimləmənin bazar sferası
4. Dövlətin strateji sferası

**Cədvəl 5: Əhalinin sosial-iqtisadi göstəricilərinin qarşılaşdırılması**

| Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Əhalinin orta aylıq gəlirləri | 348.4 | 365 | 392 | 420,8 | 455.6 |
| Orta aylıq əmək haqqı | 442,1 | 466.4 | 488,7 | 525 | 540,1 |
| Orta aylıq pensiya | 173,4 | 176.0 | 195 | 205,5 | 211 |
| İşsizliyə görə müavinət | 289,2 | 281.0 | 247,3 | 291,2 | 196 |

**Mənbə**:https://www.stat.gov.az internet resurs mənbəsinə əsasən müəllif tərəfindən hazırlanmışdır

Qeyd olunan qruplaşmalar içərisində sosial-müdafiə sferası üzrə dövlət əhəmiyyətli atılan mühim sosial-iqtisadi addımları təqdim etmək və bu addımların əhaliyə olan effektiv təsiri üzərində araşdırma aparılması da məqsədəuyğun olar. Ölkə prezidenti tərəfindən imzalanan sərəncamlar nəticəsində 2018-ci ildə də sosial təminat sisteminin bütün istiqamətləri üzrə ödənişlərdə artım tempi davam etməsi yuxarıdakı cədvəldə öz əksini tapmış və bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən əldə olunan məlumatlara əsasən əmək pensiyalarının orta aylıq məbləğində 6,8 faiz, o cümlədən yaşa görə əmək pensiyalarının məbləğində 7,3 faiz artım qeydə alınmıdır.

Bütün bu gözlənilən artımlarla yanaşı ölkə prezidentinin torpaqlarımız uğrunda şəhid olmuş şəxslərin ailələrinə diqqət və qayğının əyani sübutu "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il tarixli fərmanı ölkə əhalisinin sosial-iqtisadi

inkişafında təqdirəlayiq bir addım olmuşdur. Bu sərəncama əsasən ümumilikdə 12268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən olunmuş və 6338 şəhidin 9276 vərəsəsinə birdəfəlik ödəmənin verilməsi qərarı çıxarılmışdır. Bu humanist addımın atılmasının arxasında əhalinin sosial iqtisadi rifahının artırılmasına olan diqqət və ölkə rəhbərliyi tərəfindən göstərilən qayğının bariz nümunəsidir.

İxrac icmalına əsasənlanan bu şəkildə meyvə və tərəvəz sektorunun bu qədər yüksək artım faizi ilə seçilməsinə əsas səbəb fikrimcə bu sahədə də dövlət mexanizminin təyin etdiyi strateji yol xəritəsinə bağlıdır.

**Şəkil 4: Qeyri-neft sektoru üzrə ixrac sturukturu**




**Mənbə:**http://www.iqtisadiislahat.org

Kənd təsərrüfatı ilə əlaqədar olan strateji yol xəritəsinin axışına uyğun olaraq edilən dəyişikiliklərə görə, 2014-cü il yanvar ayından etibarən 5 il müddətinə torpaq vergisi istisna olamaqla, aşağıdakı vergiləri ödəməkdən azaddırlar;

- Kənd təsərrüfatı sahəsi üzrə məhsullarının istehsalı ilə əlaqəli olan hüquqi şəxslərin gəlirlərinə tətbiq edilən gəlir vergisi.
- Kənd təsərrüfatı məhsullarının istehsalçılarının (o cümlədən, sənaye üsulu ilə) özlərinin kənd təsərrüfatı məhsullarının satışı üzrə yaranan əlavə dəyər vergisi.
- Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) hüquqi və fiziki şəxslər həmin fəaliyyət prosesində istifadə olunan əmlaka görə əmlak vergisi. (https://vergiler.az/news/taxes/1197.html)

İqtisadiyyatda dövlətin yeri və rolu onun investisiya aktivliyi haqqında çox danışmaq olar, lakin hər bir ölkənin inkişafında elə bir dövr gəlib çatırki, bu zaman

yalnız innovasiya prosesində dövlətin rolunun aktivləşməsi ən yeni və keyfiyyətli texnoloji inkişafı təmin edə bilər. Dövlətdən əlavə xərc tələb etməyən yanacaq-xammal ehtiyatlarının vasitəsilə alınan təbii renta yalnız xammal sahələrinin inkişafına deyil, innovasiyalara və infrastrukturun yaranmasına investisiya edilməlidir.

İnvestisiyalardan mövzu açıldığı məqamda sahibkarlara dəstək olunması da dövlət mexanizmlərinin nəzərindən yayınmamışdır. Belə ki bu məqsədlə prezidentimiz tərəfindən 2016-cı ildə “İnvestisiya təşviqi sənədi” təqdim olunması üzrə qaydalar təsdiq olunmuşdur. İnvestisiya təşviq sənədi respublikamızın vergi məcəlləsində və gömrük tarifi ilə əlaqəli qanunda müəyyən olunmuş güzəştləri əldə etməyə əsas verən sənəddir. İnvestisiya təşviqi sənədi investisiyanın qoyulduğu iqtisadi fəaliyyət sahəsi, investisiya qoyuluşunun həcmi ilə bağlı minimum məbləğ və investisiya layihəsinin həyata keçiriləcəyi bölgələr üzrə Nazirlər Kabineti tərəfindən müəyyən ediləcək meyarlara əsasən verilmişdir. Bu sərəncama əsasən;

1. İnvestisiya təşviqi sənədini aldığı andan 7 il müddətində fərdi sahibkarın gəlirinin, hüquqi şəxsin isə mənfəətinin 50%-i vergidən azaddır
2. İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında texnika, texnoloji avadanlıq və qurğuların idxalının həyata keçirilməsi 7 il müddətinə ƏDV-dən azaddır.
3. İnvestisiya təşviqi sənədini almış sahibkar həmin sənədi aldığı andan müvafiq əmlakına görə 7 il müddətinə əmlak vergisini ödəməkdən azaddır
4. İnvestisiya təşviqi sənədinə sahib olduğu andan andan istifadəsində və mülkiyyətində olan müvafiq ərazilərə görə 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddır.
5. İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında texnoloji avadanlıq və qurğuların həmçinin texnika idxalı 7 il müddətinə gömrük rüsumlarından azad edilir. (sahibkar.economy.gov.az)

Müasir dövrdə elə bir məqam gəlib çatmışdır ki, iqtisadi inkişaf xəttin ən səmərəli uzunmüddətli seçimini etmək lazımdır. Bununla əlaqədar XXI əsrdə

sosial-iqtisadi inkişafın uzunmüddətli strategiyasının əsas mahiyyəti daxili yüksək texnoloji inkişaf əsasında əhalinin rifah halının artması üçün şəraitin yaradılması olmalıdır.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Xülasə olaraq sosial-iqtisadi inkişafın təmin olunmasında dövlətin rolundan bəhs etdiyimiz zaman hal hazırda dövlət mexanizminin müdaxilə edib inkişafa doğru istiqamətləndirə biləcəyi məqamlar aşkar olunmuş, bu fəaliyyətlərlə bağlı bir sıra təkliflər verilmişdir. Aparılan tədqiqatlar ölkəmizin 70 illik fərqli rejimdə SSRİ müstəmləkəsi olmasının dövlət idarəetməsində boşluqlara səbəb olduğu, qeyri-neft sənayesindəki geriləmənin də əsas səbəblərindən biri olduğunubir daha sübut edir. Belə ki keçmiş SSRİ-nin digər respublikalarında olduğu kimi, Azərbaycanda da son illər ərzində fərqli iqtisadi münasibətlər sistemi qurulur. Bu sistem ümumi bazar təsərrüfatı və iqtisadiyyatın dövlət tənzimlənməsi proseslərinəəsaslanır və artan qloballaşma prosesləri şəraitində dünya iqtisadiyyatının hər bir dövlətin maraqlarını nəzərə alır. Belə şəraitdə strateji istiqamətlər dəqiqləşdirilən və son illərin nailiyyətləri qeyd edilən inkişaf modellərinin seçilməsi xüsusi aktuallıq kəsb edir.

Aparılan araşdırmaların yekun göstəricisi olaraq həyata keçirilən strateji yol xəritələrinin nəticələrini qarşılaşdırmaq daha məqsədəuyğundur.

Bu strateji yol xəritələrinin icrasının nəticələrini təqdim edərək dövlət əhəmiyyətli addımların ölkəmiz üçün hansı sosial-iqtisadi nəticələri doğurduğunu görmək mümkündür.

Milli iqtisadiyyat perspektivi istiqamətində hazırlanmış strateji yol xəritəsinin icrası nəticəsində makroiqtisadi sabitlik və koordinasiya təmin edən, vergi və gömrük islahatları, pul proqramı, özəlləşdirmə gündəliyi, məşğulluq strategiyası, işsizlikdən sığorta sistemi və icbari tibbi sığortanın pilot tətbiqi kimi fəaliyyətlər həyata keçirilmiş, biznes islahatları sahəsində isə elektron məhkəmə, yaşıl dəhliz anlayışı və onlayn ixrac ərizəsi kimi sahələri əhatə edərək ixraca yönəlmiş subsidiyalar kimi təşviq metodları istifadə edilmişdir.

Milli iqtisadiyyatın inkişafı üzrə 2019-2020-ci illərdə icrası gözlənilən əsas tədbirlər isə: Adekvat iqtisadi gözləntilərin formalaşdırılması, nağdsız ödənişlərin arttırılması, kapital bazarının inkişafı və s. olaraq müəyyən olunmuşdur.

Kənd təsərrüfatı sahəsində qəbul olunmuş strateji yol xəritəsi çərçivəsində aqrar sahədə ali təhsilin inkişafı, ikili diplom proqramlarının tətbiqi birbaşa olaraq məzunların işlə təmin olunmasına yardımcı olacaq, həmçinin "Made in Azerbaijan" brendinin beynəlxalq səviyyədə tanıdılması istiqamətində irəliləyişlər qeydə alınmışdır. Həyata keçirilən fəaliyyətlərin nəticəsi olaraq 2017 və 2016-ci ili müqayisə etdiyimiz zaman faktiki qiymətlərdə 4,2 faiz artım qeydə alınmış və bu sektorun dinamik inkişafı növbəti ildə də davam edərək ümumi məhsul istehsalı 1 il ərzində 4,7 faiz artım göstərmişdir. (iqtisadiislahat.org)

Turizm sənayesinin inkişafına dair yol xəritəsi çərçivəsində isə "tax free", "e-viza", xidmətlərinin təşkili ilə yanaşı ölkəmizdən kənarda da ölkə turizm agentliyinin nümayəndəliklərinin yaradılmışdır.

Kiçik və orta sahibkarlığın inkişafı istiqamətində isə bu sahədə inkişaf agentliyi, ipoteka və kredit fondu yaradılmışdır. Qeydə alınan son statistik məlumatlara əsasən kiçik və orta sahibkarlıq subyektləri üzrə yaradılmış əlavə dəyər 2017-ci ildə 3,8 milyard manta yəni ötən illə müqayisə etdiyimiz zaman 6,1 faiz artım deməkdir. Öncəki bölmədə qeyd olunduğu kimi KOS subyektlərinin dəstəklənməsi ölkənin ümumi daxili rifahına da müsbət təsirini göstərir.

Ağır sənaye və maşınqayırma ilə əlaqələndirilmiş strateji yol xəritəsi çərçivəsində yerli bazarda boşluqların mövcud olduğu sahələrə uyğun yeni təhsil proqramları hazırlanmış, bir sıra peşə təhsili müəssisələrində proqramların pilot olaraq tətbiqinə başlanılmışdır. Ağır sənaye və maşınqayırmanın inkişafında xüsusi rola olan Sumqayıt sənaye parkının ərazisində yerləşən "SOCAR Polymer" zavodunun isə tam istehsal səviyyəsinə çatacağı halda ölkənin qeyri-neft sektorunun ixrac gəlirlərinin də 15 faiz artacağı ehtimal olunur.

Bütün bu strateji addımlara baxmayaraq təəssüf ki, iqtisadiyyatımızın xammal yönümlü inkişafı texnoloji geridə qalmanı və innovasiya inkişafını ləngidir. Azərbaycanı yüksək həyat səviyyəli inkişafetmiş ölkələr sırasına çıxartmağa qadir strategiyanın əsasını innovasiyaya dayalı istehsalat təşkil etməlidir. Hal hazırda inkişaf etmiş ölkələrin sosial-iqtisadi rifahı daim innovasiya axtarışı əsasında formalaşmaqdadır. İqtisadiyyatımızın səmərəli artımının təmin

olunmasının da enerji qənaətli texnologiyalara əsaslanması daha arzuolunandır. Məhz bunun üçün isə investisiya və innovasiya bazarını aktivləşdirmək lazımdır. Təbii resursların tükənməsini nəzərə alaraq, enerjiqənaətli texnologiyalara keçilməsi gələcəkdə ölkəmiz üçün rəqabətin əsas gücü olacaqdır.

Enerjiqənaətli texnologiyaların istehsalına vasitə olacaq elmi araşdırmalar və onların praktiki tətbiqi arasında əlaqə pozğunluğu hal-hazırda ölkəmiz üçün səciyyəvidir. Xammal biznesinin elmin inkişafında az maraqla olması səbəbindən, mövcud texnologiya və avadanlığın əldə edilməsi strateji üstünlüklər yaratmır. Ölkəmizdə şəxsi texnoloji araşdırmaların təşkilinə ehtiyac var. Bunun əhəmiyyəti ondan ibarətdir ki, iqtisadiyyatın bütün sahələrinin istehsal aparatının texnoloji əsasının irəliləməsi təhlükəsi mövcuddur.

Vəziyyətin dəyişilməsi ölkə daxilində yeni texnologiyaların istifadəsi və yayılmasını, elmtutumlu məhsulların və elmin maddi-texniki və maliyyə bazasının möhkəmləndirilməsini ilə mümkündür. Bu isə dövlət-özəl sektor əməkdaşlığının genişlənməsi və elmi-texniki təşkilin bütün mərhələlərində təkrar istehsal proseslərinin tənzimlənməsi şərtləri ilə mümkün ola bilər.Bundan ötrü:

- Elmin dövlətin maliyyə resursları ilə təminatının genişləndirilməsi;
- Elmi-texniki tərəqqinin kadr hazırlığınının uzun və orta müddətli proqramlarının işlənib-hazırlanması və həyatda keçirilməsi;
- Perspektiv layihələrə istiqamətlənmiş güzəştli kreditlərin verilməsi;
- Elmi-texniki məhsulların və iqtisadiyyatda elmtutumlu sahələrin məhsullarına dövlət sifarişlərinin genişləndirilməsi və s. lazımdır.

Dayanıqlı inkişaf modelinə keçid üçün başlanğıc şəraitləri də vacibdir. Ölkənin dayanıqlı inkişafa keçidi bir sıra sahib olduğu amillər əsasında müəyyənləşir. Belə ki, onun dünya birliyində rolu və yeri, mövcud milli resursları, yaradılan sosial iqtisadi potensialı bu keçid dövründə mühim rol oynayır.Bildiyimiz kimi Azərbaycanda dayanıqlı sosial-iqtisadi inkişafı təmin edəcək bir sıra perspektivli amil və şərait vardır.

- Əlverişli iqtisadi-coğrafi və siyasi yerləşmə;
- Ümumilikdə inkişaf etmiş nəqliyyat, kommunal və istehsal sistemləri;

- Əhəmiyyətli faydalı qazıntıların mövcudluğu;
- Əhalinin yüksək ümumtəhsil səviyyəsinə mövcud ixtisaslı kadr hazırlığı sistemi;
- Mühüm elmi-texniki potensial;
- Çoxsahəli sənaye kompleksi;
- Güclü tikinti bazası;

Dövlətin uzunmüddətli iqtisadi strategiyasının uğurla həyata keçməsinin əsasında əhəmiyyətli mövcud maliyyə mənbələri tutur. Maliyyə vəziyyətinin qiymətləndirdiyimiz zaman belə bir nəticəyə gəlmək mümkündür ki, ölkədə investisiya resursları mövcuddur və onların bir yerdə istifadəsi yüksək texnoloji və daxili inkişaf əsasında istehlak tələbinin artımını təmin edə bilər. Lakin ölkəmizdə hal-hazırda yığım deyil, investisiya qıtlığı var və ölkə yenə də kreditləri toplamaqda davam edir. Daxili yüksək texnoloji inkişafın potensialından bütün investisiya resurslarının dövlətin də biznesin də mümkün olan sahələrində koordinasiyası əsasında istifadə etmək olar. Xarici investisiyaların cəlb edilməsinin daha çox kapitalın sürətli dövriyyəsi olan sahələrə istiqamətlənməsi görə də yerli investisiya mənbələrinə istiqamətlənmək daha effektiv nəticələr doğuracaqdır. Əks təqdirdə bizi ÜDM-in artım templərində problemlər gözləməkdədir.

İqtisadi inkişaf templərinin artması, əhalinin həyat səviyyəsinin keyfiyyətinin yaxşılaşması və yerli məhsulların rəqabət qabiliyyətinin yüksəlməsinə dair qarşıya qoyulan strateji məqsədlərə nail olmaq üçün təklif olunan aşağıdakı variantlar təyin edilmişdir.

- Dünya bazarında muüəssisələrin fəaliyyətində onlara rəqabət üstünlüklərini təmin edən texnologiyaların aşkar edilməsi və inkişafı
- Elmi-təqiqata yönəlmiş dövlət xərclərinin arttırılması
- Regionlarda elmi tədqiqat və innovasiya fəaliyyətini təmin edən yeni kompleks proqramlarının hazırlanması.

Xüsusi olaraq vurğulanmalıdır ki, stabil artımı innovasiya-investisiya inkişaf yolu təmin edə bilər. Bu zaman dövlət investisiyaları aktiv olaraq ilk növbədə insan kapitalına və infrastruktura yönəldilməlidir. Hal-hazırda bir sıra müəssisələr

səmərəli texnologiyaların tətbiqi ilə fərqlənən və dünya səviyyəsində məhsul buraxmağa imkan verən elmi araşdırmalara malikdirlər. Lakin, innovasiya mühütində əhəmiyyətli nailiyyətlərə çatmaq aşağıdakı səbəblərə görə hələ də problemlidir:

- Müəssisələr fəaliyyətləri zamanı qısa müddətli nəticələrə yönəlirlər ki , bunun da nəticəsində istehsalın yenilənməsinə dair planlı hazırlığı aparmaq qeyri-mümkündür;
- Marketinq tədqiqatları və əmtəələrin yeniləşməsinə dair araşdırmanın qeyri-peşəkar aparılması nəticəsində onların bazardan yetəri qədər xəbərdar olmaması;
- Mövcud resursların qeyri-səmərəli istifadəsi;
- Buraxılan məhsulun rəqabətqabiliyyətinin artırılmasına yetəri qədər diqqət ayrılmaması və s.

Dayanıqlı inkişaf edən milli iqtisadiyyat səmərəli, rəqabətqabiliyyətli və eyni zamanda sosial istiqamətlənmiş, qənaətli, ekologiyaya ziyansız olmalıdır. Bununla əlaqədar mövcud ehtiyatlar və əhalinin tələbatının optimal səviyyədə təmin edilməsi nəzərə alınmaqla istehsalın və istehlakın təkmilləşdirilməsi nəzərdə tutulmalıdır. Milli iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi və sosial məsələlərin həll edilməsində mühüm vasitə ÜDMin davamlı artımı, sahələrarası komplekslərin və xalq təsərrüfatınınsahələrinin inkişafıdır. Ölkə ərazisində sənayedə texnoloji geriləmə elmtutumlu məhsulların nisbətən aşağı paya malik olmasında öz əksini tapır. Bunun da səbəblərindən biri innovativ investisiyaların aşağı səviyyədə olmasıdır. Nəinki sahibkarlıq sahələrində, hətta elmin özündə də ciddi problemlər var. Buna görə də müvafiq resurslarla təmin edilmiş uzunmüddətli sənaye siyasətinin yaradılması məqsədəuyğundur. Bu siyasət sənayenin innovasiya inkişafının təmin edilməsinə yönəldilməlidir. Bu prosesin isə aşağıdakı tədbir və mexanizmləri var:

- İqtisadiyyatda bazar və digər institutsional dəyişikliklərin edilməsi (bazar iqtisadiyyatının yaranması və inkişafı üçün zəruri olan,əhalinin həyat səviyyəsinin artırılması vəzifələrini həll etməyə, istehsalın modernləşməsini, ölkənin təbii

kompleksinin təkrar istehsal potensialının qorunub saxlanılmasına imkan verən institutlar sisteminin yaradılması);

- Sahibkarlıq fəaliyyətinin genişləndirilməsi
- Elmi tədqiqatların və araşdırmaların inkişafının təmin olunması
- İstehsalın modernləşdirilməsi
- İnvestisiya-struktur siyasətinin təkmilləşdirilməsi
- Xarici iqtisadi siyasətin və beynəlxalq əməkdaşlığın aktivləşməsi;
- Regionların dayanıqlı inkişaf proqramlarının işlənib hazırlanması;
- Dayanıqlı inkişafın nəqliyyat və sosial-siyasi mexanizmlərinin inkişafı.

Təbii ki görülən bu işlərin təsiri və nəticəsini görmək üçün daha uzun müddət tələb olunur. Buna görə də bu fəaliyyətlərin dərhal effektini gözləmək əbəsdir. Bunun üçün müvafiq daxili bazarı qorumaq, yeni istehsal sahələri yaratmaq, kiçik və orta sahibkarlıq üçün geniş imkanlar açmaq, vergi və gömrük siyasətini ölkə rejiminə uyğunlaşdırılmaq və s.

Son olaraq nəzərə almaq lazımdır ki, sosial-iqtisadi və milli iqtisadi inkişaf modeli problem respublikamızda yenicə işləməyə başlayır. Qeyd olunan amillər onu göstərir ki, problemə nəzəri-praktiki baxımdan yanaşmaqla biz: Azərbaycanda hansı iqtisadi inkişaf modeli formalaşmalı, bu model dünya təcrübəsi ilə necə uyğunluq təşkil etməli və onun mövcudluq üsulu hansı formada həyata keçirilməlidir variantlarını irəli sürəbilərik.

İqtisadi proseslərin kompleks xarakterindən çıxış edərək qeyd edə bilərik ki, tənzimlənmədə qeyri-bazar üsullarının tətbiq olunması təsərrüfat subyektlərinin maraq-mənafeyinə uyğun ardıcıl və razılıq əsasında həyata keçirilməlidir. Dövlətin qarşısında duran vəzifələrin həll olunması üçün bir sıra vasitələr: innovasiya, sənaye və struktur, fiskal və monetar, sosial və gəlirlərin idarəolunması, xarici iqtisadi və s. siyasətlər vardır. Yuxarıda qeyd olunan siyasətlərin makroiqtisadi səviyyədə yerinə yetirilməsi zamanı dövlət, daxili və xarici amillərdən qaynaqlanan dəyişiklikləri nəzərə alaraq iqtisadiyyatda makroiqtisadi sabitlik. Buna görə də davamlı iqtisadi inkişafın əldə olunması baxımından dövlətin həyata keçirtdiyi iqtisadi tədbirlərin böyük əhəmiyyəti vardır.

Dünyanın aparıcı ölkələrinin sosial-iqtisadi inkişafında dövlətin rolu artır. Azərbaycanda hal hazırda yaranmış vəziyyət hər şeydən əvvəl, uzunmüddətli inkişaf strategiyasının olmaması, qısamüddətli subyektiv maraqların uzunmüddətli maraqları üstələnməsinin nəticəsidir. Müasir dövrdə dövlət bazarın çatışmazlıqlarını örtməli və yalnız ona məxsus olan funksiyaları qoruyub saxlamalıdır. Maraqların belə nisbəti qorunub saxlanılsa öz milli sərvətinə nəzarət edən və yüksək texnoloji inkişaf əsasında əhalisinin yüksək istehlak tələbini təmin edən dövləti uzunmüddətli inkişaf strategiyasını işləyib hazırlamaq və həyata keçirmək olar.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


**1.** Alıyev.İ.H., “Qloballaşma mühitində milli iqtisadi inkişaf modelin: formalaşması və inkişafı problemləri” , Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, (2010) – s 258

**2.** Allahverdiyev.H.B., Qafarov.K.S., Əhmədov.Ə.M., “Milli Iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. (2012) , s.502.

**3.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**4.** Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında”

**5.** “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” fərmanı

**6.** Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, (2010): buraxılış 7

**7.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası prezidentinin fərmanı

**8.** Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan respublikasının prezidentinin fərmanı

**9.** Dünya İnvestisiya Hesabatı

**10.** Əhmədov.M.A., Hüseyn.A.C., “İqtisadiyyatın dövlət tənzimləməsinin əsasları”, metodik vəsait (2011)- 120 s.

**11.** Əlirzayev.Ə.Q , “İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial- iqtisadi inkişaf problemləri: təcrübə, meyllər və perspektiv istiqamətlər” , (2005) - 538 s.

**12.** Əliyev.T , Babayev.İ “ Regional innovasiya sisteminin təşkili və idarəedilməsi” (2013) – 272 s.

**13.** Hacızadə.E.M., “Sosiallaşan İqtisadiyyat” ,(2006) – 509 s.

**14.** Hüseynov.A., “Müstəqil Azərbaycan-20 : İqtisadi inkişaf yolu” , (2011) : 328 s.

**15.** Hüseynov İ., Əfəndiyeva N. Xarici ölkələrdə mədəni fəaliyyətin təşkili. (2008): 372 s.

**16.** Qurbanov.T.M., “ Müstəqillik dövründə Azərbaycanın Milli iqtisadiyyatının inkişaf tarixi və onun xüsusiyyətləri “(1991-2010-cu illər) , Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, (2013) – 151 s.

**17.** Mehdiyev.R., “Azerbaydjan: vızovı qlobalizaüii”. (2004)

**18.** Mərkəzi Bank Statistika Departamenti

**19.** Ölkə Tərəfdaşlıq Strategiyası: Azərbaycan, 2014–2018

**20.** SAM-ın ŞƏRHLƏRİ, “2003-2011-ci illərdə Azərbaycan Respublikasının Sosial-iqtisadi inkişafı” (2011) : 31 s.

## Xarici dildə

**1.** TURAN-SAM YIL:1 SAYI:4 SONBAHAR 2009

**2.** Ankara Yıldırım Beyazıt Universitesi, Sosial Bilimler Enstitüsü, Yüksek Lisans Tezi, Salihe Kaya, 2017.

## İnternet resursları

**1.** https://www.academia.edu/6608381/NEFT_GƏLİRLƏRİNİN_İDARƏ_OLUNMASINDA_UĞURLU_MODEL_NORVEÇ_MODELİ

**2.** https://azertag.az/bolme/agriculture?page=7

**3.** Azexport.az

**4.** https://economy.gov.az/article/iqtisadi-zonalar/21402

**5.** https://www.economy.gov.az/article/iqtisadiyyat-naziri-shahin-mustafayevin-davamli-inkishafa-aparan-strategiya-serlovheli-meqalesi-azerbaycan-qezeti-19.10.2017/28572

**6.** http://huquqiaktlar.gov.az/StatementDetails.aspx?statementId=44580

**7.** https://mida.gov.az/documents/Kiçik_və_orta_sahibkarlıq_səviyyəsində_istehlak_mallarının_istehsalına_dair.pdf

**8.** http://statistika.nmr.az/source/agriculture/index.php
**9.** https://www.stat.gov.az/menu/2/quality/az/gsbpm/nataccaunt/1_2-xb_sb.pdf
**10.** https://vergiler.az/news/taxes/1197.html
**11.** portofbaku.com
**12.** http://www.elibrary.az/docs/qazet/qzt2011_1955.pdf
**13.** http://azerbaijan.az/portal/Economy/Reforms/reforms_a.html
**14.** https://www.economy.gov.az/article/2013-qns/22065
**15.** https://www.economy.gov.az/article/azerbaycan-respublikasinda-qeyri-neft sektorunun-inkishafi-2018-ci-ilin-birinci-rubu-uzre/29186
**16.** http://www.e-qanun.az/framework/4797
**17.** https://www.adb.org/sites/default/files/institutional-document/161454/cps-aze-2014-2018-az.pdf
**18.** https://mida.gov.az/documents/Kiçik_və_orta_sahibkarlıq_səviyyəsində_istehlak_mallarının_istehsalına_dair.pdf
**19.** http://iqtisadiislahat.org/store//media/documents/islahatlar_icmali/SME_aze.pdf
**20.** https://azertag.az/xeber/Martda_olkeye_gelen_xarici_vetendaslar_bank_kartlari_ile_98_milyon_manatliq_emeliyyatlar_aparib-1276582
**21.** https://azertag.az/xeber/Fevralda_qeyri_neft_sektoru_uzre_ixrac_144_milyon_dollar_teskil_edib-1263997
**22.** http://portofbaku.com/az/Alyat-Logistics-and-Trade-Zone-ALTZ/
**23.** https://tez.yok.gov.tr/UlusalTezMerkezi/TezGoster?key=RrIKrk3ARkF4YfHofuk5mksFIjHlsKrWhIaNy2tnO7j2wxxbwhcp1cZa2xsud6 resurs mənbəsinə istinadən müəllif tərəfindən hazırlanmışdır.
**24.** http://iqtisadiislahat.org/store//media/documents/ixrac_icmali/I_rub/ExportReview2017-1.pdf
**25.** https://www.economy.gov.az/article/azerbaycan-respublikasinda-qeyri-neft-sektorunun-inkishafi-2018-ci-ilin-birinci-rubu-uzre/29186
**26.**https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/azfigures-az_2018.zip internet

**27.** http://www.iqtisadiislahat.org/news/ixrac_icmali_nin_2019_ci_ilin_fevral_sayi_teqdim_olunub-700

**28.** http://iqtisadiislahat.org/news/strateji_yol_xeritelerinin_monitorinq_ve_qiymetlendirme_neticeleri_aciqlandi-743

## Cədvəllərin siyahısı

**Cədvəl 1** Aran iqtisadi rayonunun sosial-iqtisadi göstəriciləri.................................... 30

**Cədvəl 2** Kiçik və orta sahibkarlıq subyektləri üzrə strateji hədəflər ......................... 37

**Cədvəl 3** Ölkələrarası insan inkişaf indeksi ............................................................. 55

**Cədvəl 4** Mərkəzi Bank cari əməliyyat hesab göstəriciləri ......................................... 59

**Cədvəl 5** Əhalinin sosial-iqtisadi göstəricilərinin qarşılaşdırılması ............................ 61

## Şəkillərin siyahısı

**Şəkil 1** Xarici vətəndaşların bank kartları ilə apardıqları əməliyyatlar ....................... 39

**Şəkil 2** Qeyri-neft sektoru üzrə əsas ixrac ölkələri .................................................. 46

**Şəkil 3** Ələt Azad İqtisadi Zonasının planlaşdırılan yükdaşıma mərhələləri ........... 49

**Şəkil 4** Qeyri-neft sektoru üzrə ixrac sturukturu....................................................... 62

## Qrafiklərin siyahısı

Qrafik 1 Ölkələr üzrə KOS subyektlərinin məşğulluqda payı ...................................... 36

Qrafik 2: İxrac malları üzrə statistik göstəricilər ........................................................ 58

## Diaqramların siyahısı

**Diaqram 1**: Qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin sahələr üzrə bölgüsü (2013-cü il) ..................................................................................................... 23

**Diaqram 2**: Qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin sahələr üzrə bölgüsü (2018-ci il) ..................................................................................................... 23

**Diaqram 3**: Qeyri-neft sənayesinin ümumi buxarılışının strukturu ............................ 60